RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 273 (8296) BAZAR, 8 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının sağlamlığı və rifahı dayanır

## Prezidentin Şamaxı rayonunun sakinləri ilə görüşləri bunu bir daha təsdiqlədi

Son günlər dövlət başçısı iş qrafikindəki gərginliyə baxmayaraq yenə də bölgələri diqqət mərkəzində saxlayır, verdiyi tapşırıqların icrasına nəzarət etmək, görülən işlərlə tanış olmaq, sadə insanlarla görüşmək, onların qayğılarını öyrənmək üçün bölgələrə ənənəvi səfərlərini davam etdirir. Bu baxımdan Prezidentin 5-6 dekabrda Şamaxı rayonuna sonuncu səfəri də bölgələrə artan diqqətin təzahürü kimi mühüm əhəmiyyət daşıyır.

Dövlət başçısı səfər zamanı Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonrakı açılışında iştirak etdi. 4 min nəfər əhalinin yaşadığı, 5 məntəqəni birləşdirən ümumi uzunluğu 16 kilometr olan bu yol yenidən qurularaq 4 zolağadək genişləndirilmişdir. Bu yol insanların rahat gediş-gəlişini təmin edəcəkdir.

Həmin gün Prezident İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasına da baş çəkmiş, yaradılmış şəraitlə tanış olmaq üçün Fərdar Həsənovun mənzilində çay süfrəsinə əyləşmiş, onun anası Xuraman xanımla söhbət etmişdir. Dövlət başçısı ona dərindən minnətdarlığını bildirən, sidqiürəkdən işlərinə xeyir-dua verən Xuraman xanıma bu il üçüncü dəfə Şamaxıya gəldiyini bildirdi. Birinci dəfə zəlzələ baş verəndə, ikinci dəfə mart ayında - göstəriş vermişdi ki, ilin sonuna qədər bütün evlər tikilsin: "Şadam ki, buna nail olmuşuq. Bu da əslində misli görünməmiş məsələdir. Çünki 10 ay ərzində bütün fərdi evlər tikildi, təmir olundu. İndi düzdür, bəzilərinin tikintisi davam edir. Hündürmərtəbəli, 174 mənzilli üç bina, o cümlədən bu bina. Təkcə Şamaxı rayonunda yox, Ağsuda, İsmayıllıda da böyük işlər görülübdür. Bütün bunları biz dövlətin vəsaiti hesabına etdik. Bir daha göstərdik ki, Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır".

Ardı 2-ci səh.



# Mənəvi ucalığın və nəcibliyin ünvanı

Mənəvi saflıq, düzgünlük və ədalət, humanizm, xeyirxahlıq, yaxşılıq etmək və kömək göstərmək kimi bəşəri dəyərlərin təbliğində istisnasız xidmət Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın amalına, həyat və fəaliyyətinin məqsədinə çevrilib.

Bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı sağlam əqidəli, xalqa və dövlətə sədaqətli xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olub. Bu gün də belədir. Onlar ona görə cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilirlər ki, öz üzərlərinə düşən sosial, siyasi, eləcə də mədəni məsuliyyəti düzgün dəyərləndirir, bunun nəticəsində isə xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da belə şəxsiyyətlərdəndir.

Mədəniyyət və incəsənətimizin layiqli davamçıları və təbliğatçılarına da daim diqqət və qayğı göstərən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu günlərdə Xalq artisti Əlibaba Məmmədovun evinə qonaq gəlməsi muğam ustadı üçün sanki bir ziyarət oldu. Bunu Əlibaba müəllimin dəyərli qonağı qarşılayarkən səmimi etirafından aydınca hiss etmək olurdu: "Nə xoşbəxtçilik. Çox böyük zəhmət vermisiniz özünüzə. İnanırsınız ki, Allaha and olsun, mən nə boyda həyəcan keçirirəm ki, mənim üçün böyük bir şəxsiyyət, böyük bir insan bizə qonaq gəlib".

Azərbaycanın birinci xanımının hər bir vətəndaş tərəfindən sevilməsinin səbəblərini xatırlatmağı özünə borc bilən Xalq artisti yaxşı bilir ki, milli-mənəvi dəyərlərimizdən olan muğamlarımızın UNESKO səviyyəsində qorunması, əbədiyaşarlığının təmin edilməsinin təşəbbüskarı və təşkilatçısı məhz Mehriban xanım Əliyevadır. Daim xalqımızın sevimli sənətkarlarının xidmətlərini yüksək dəyərləndirən Mehriban xanım da Xalq artisti və unudulmaz muğam ustadının ailəsində olub onu ziyarət etməkdən məmnunluğunu bildirdi.

Xalq artisti Birinci vitse-prezidenti üç məsələ ilə əlaqədar təbrik etdi: "Mən Sizi təbrik etmək istəyirəm, Birinci vitse-prezident seçilməyinizə görə, bu bir. İkincisi, "Heydər Əliyev" ordeni ilə təltif olunduğunuza görə, - bunların hamısına baxmışam, - bu iki. Üçüncüsü, Rusiyanın Prezidenti Sizə böyük bir mükafat verdi, bütün dünya buna baxırdı. Sizi inandırım ki, mən bunlara hər dəfə baxdıqca həyəcanlanırdım. Siz çox böyük işlər görmüsünüz, hələ də görürsünüz və hələ də görəcəksiniz. Bilirsiniz, amma bu üç iş elə bir işlərdir ki, nə bilim, tarixdən də o yanadır, bunu tarix yaza bilməz, bu, mümkün deyil. Allah Sizi var eləsin".

Birinci vitse-prezident Mehriban xanım Əliyeva Xalq artistinin mədəniyyət və incəsənət sahəsindəki xidmətlərinin heç zaman unudulmadığını xatırlatdı: "Çox sağ olun, Əlibaba müəllim. Mən də sizə demək istəyirəm ki, çox yaxşı xatırlayıram ilk dəfə sizinlə tanış olmağımızı. O zaman Heydər Əliyev Fondunun böyük bir layihəsinə start verdik. Yəqin ki, yadınızdadır, bizim milli sərvətimiz olan muğamın qorunmasına yönəlmiş bir layihə idi, siz böyük yardım göstərdiniz və bu illər ərzində sizin dəstəyinizlə, iştirakınızla birlikdə böyük işlər gördük. Siz Azərbaycanın görkəmli xanəndələrindən birisiniz. Sizin özünüzə məxsus dəstxətiniz var, çox gözəl səsə malik olan ustadsınız və bütün Azərbaycan xalqının sevimlisisiniz.

Ardı 2-ci səh.

# İslahatların səmərəliliyi dayanıqlı iqtisadi inkişafın təminatından keçir

Aparılan islahatların məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bunun üçün ilk növbədə iqtisadiyyatın dinamik inkişafı təmin edilməlidir. Deməli, islahatların əsas hədəfi güclü iqtisadiyyata malik güclü dövlət qurmaqdır.

Azərbaycanda aparılan islahatlar aparıcı beynəlxalq maliyyə qurumları olan Dünya, Avropa Yenidənqurma və İnkişaf, Asiya İnkişaf, Avropa İnvestisiya bankları, Beynəlxalq Valyuta Fondu və digər çoxsaylı təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Məsələn, "Doing Business"in hesabatında ölkəmiz biznes mühitinə görə dünya üzrə 25-ci yerdədir. Yenə də həmin qurumun son hesabatında ölkəmiz dünyanın 20 ən islahatçı ölkəsi sırasında qərar tutub.

Prezident İlham Əliyev ölkədə aparılan islahatların dünyada yüksək dəyərləndirildiyini vurğulayaraq demişdir: "Mülkiyyət hüququnun qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yəni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir. Yəni bu, onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir. Rəhbərliyin dəyişikliklərə, yəni islahatlara meyillilik səviyyəsinə görə biz dünyada 5-ci yerdəyik".

İqtisadi islahatların əsas istiqamətlərindən biri ölkədə enerji məhsullarının satışından asılılığı aradan qaldırmaqdır. Məqsəd bu yolla həm qeyri-neft sektorunun, həm də regionların inkişafına nail olmaqdır. Bu sahədə məhsul istehsalının və ixracının statistikası göstərir ki, aparılan islahatların nəticəsi uğurludur. Təkcə cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə məhsul ixracı 16,4 faiz artmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nda bildirilir ki, cari ilin 10 ayının nəticələrinə görə, ölkəmizin ixracı 16,8 milyard dollar təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz çoxdur. Onu da vurğulayaq ki, həmin dövrdə qeyri-neft sektoru üzrə 1 milyard 573 milyon dollar dəyərində ixrac reallaşıb. Bu, 16,4 faiz artım deməkdir. 10 ay ərzində ölkəmizin qeyri-neft sektoruna aid ən çox məhsul ixrac etdiyi ölkələr Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan və Ukraynadır.

Ardı 2-ci səh.

# Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərə rəsmən start verib



Dekabrın 7-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə MSK sədri komissiya üzvlərini Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncamı ilə tanış edib və bildirib ki, dövlət başçısının sərəncamı ilə Milli Məclisə seçkilər 2020-ci il fevralın 9-na təyin olunub.

Sonra Milli Məclisə seçkilərlə əlaqədar qanunvericilikdə nəzərdə tutulan tədbirlərin sistemli, ardıcıl və keyfiyyətlə gerçəkləşdirilməsi, habelə seçki iştirakçılarına metodiki kömək göstərilməsi və onların fəaliyyətlərinin daha da sadələşdirilməsi məqsədilə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı komissiya üzvləri tərəfindən müzakirə olunaraq təsdiq edilib.

Ardı 4-cü səh.



# İnfrastruktur layihələri şəhərlərin və kəndlərin simasını dəyişib

## İnsanların rahatlığı təmin olunub, ölkə müasirləşib

Sosial infrastruktur olmadan iqtisadi inkişaf da mümkün deyil. Prezident İlham Əliyev ölkənin regionlarının sosial-iqtisadi inkişafını müəyyənləşdirərkən məhz yeni, müasir infrastruktur yaradılmasını da önə çəkib.

Azərbaycan artıq bu layihələrin bəhrəsini görür. İnfrastruktur layihələri xalqın həyat və məişət şəraitini yaxşılaşdırmaqla yanaşı, həm də şəhər və kəndlərimizin simasını büsbütün dəyişib.

İnsanın yaxşı, rahat ömür sürməsi üçün onu əhatə edən infrastrukturun olması vacib şərtdir. İşıq, yol, su, qaz... "Müasir dövrdə bunlarsız necə yaşamaq olar" sualına təbii ki, müsbət cavab verən tapılmaz. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə bunlar sarıdan çəkilən əziyyət yaşlı və orta nəslin yaxşı yadındadır. Bölgələrdə işığın və istiliyin yoxluğu bütün ölkədə demoqrafik xaos yaratmışdı.

Ardı 2-ci səh.

# Mənəvi ucalığın və nəcibliyin ünvanı

Əvvəli 1-ci səh.

Sizi hamı sevir. Onu da qeyd etmək istəyirəm ki, siz Azərbaycanın milli-mənəvi ənənələrinin daşıyıcısısınız. Ona görə də böyük hörmətə malik olan bir insansınız".

Xalq artisti ölkədə son illər nail olunan inkişafa diqqət çəkərək həyata keçirilən bütün işlərə görə dövlət başçısına minnətdarlığını ifadə etdi və yürüdülən siyasətin xalq tərəfindən birmənalı şəkildə bəyənildiyini, dəstəkləndiyini vurğulayaraq bundan sonrakı fəaliyyətində də uğurlar dilədi: "...Prezidentimizi də bağrıma basıram. Sağ olsun, var olsun. Öz aramızdı, baxın, 15 ildə nə qədər işlər görmüsünüz, kim edə bilər? Prezidentimiz 15 ildir bizə rəhbərlik edir, xalqımızı idarə edir. Baxın, görün, Azərbaycan o Azərbaycandır, Bakı o Bakıdır? Böyük işlər görüb, yenə də görür, indi lap böyük işlər görür. Bunun hamısını yerinə qoyub. Bilirsiniz, mən siyasətçi deyiləm, mən muğam ifaçısıyam, azdan-çoxdan şeiriyyət bilirəm, bir də muğamat bilirəm. Başqa bir şeylə işim yoxdur. Amma gözüm görür də, vallah. Bəzən deyirəm ki, bunların ağlı yoxdur, gözləri də yoxdur? Baxmırlar, görmürlər ki, nə işlər görülür? Xalqımızın adından, musiqiçilərin adından, öz adımdan deyirəm ki, var olun, dünyada nə gözəl şeylər var, hamısı Sizə qismət olsun".

Xalq artistinin dedikləri real həyat həqiqətləridir. Bunun təsdiqi üçünsə Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyəti dövründə həyata keçirdiyi irimiqyaslı layihələrə və beynəlxalq aləmdə qazandığı nüfuzu əsaslandıran bəzi faktlara diqqət ayırmaq yerinə düşərdi. 9 sentyabr 2004-cü ildə Mehriban xanım Əliyevaya Parisdə UNESKO-nun xoşməramlı səfiri adı təqdim olundu. O, 2004-cü ilin mayından Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiram, ideyalarını yaşatmaq arzusu ilə yaradılan və adını daşıyan fonda rəhbərlik etməklə, humanist ideyaların carçısına döndü. 2005-ci il noyabrın 6-da Milli Məclisə seçkilər zamanı ən yüksək seçici səsi qazanması təsadüfi deyildi. Təəssübkeşliyi, xeyirduası, dəstəyi ilə həyata keçirilən qlobal layihələrdən bu gün həm ölkə daxilində, həm də ondan kənarda çox böyük hörmətlə söhbət açılır. UNESKO-nun keçmiş Baş direktoru Koişiro Matsuura heç də təsadüfi yerə deməmişdir: "Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanla UNESKO arasında sıx əməkdaşlıq yaranmışdır".

Azərbaycan mədəniyyəti və incəsənəti incilərinin dünya mədəni xəzinəsinə daxil edilməsinə nail olan Mehriban xanım deyir: "Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da bu günə qədər qoruyub saxladığımız və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə yönəldilmişdir, UNESKO-nun xoşməramlı səfiri kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə yönələcəkdir".

Bu nüfuzlu beynəlxalq təşkilatın xoşməramlı səfiri olduqdan iki il sonra Mehriban xanım Əliyevanın müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyəti, ehtiyacı olan uşaqlara qayğısı, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə də diqqət çəkdi. Nəticə etibarilə birinci xanım 2006-cı il noyabrın 24-də 51 müsəlman dövlətinin təmsil edildiyi nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan ISESCO-nun xoşməramlı səfiri adına da layiq görüldü.

Daha bir ürəkaçan fakt: Mehriban xanım Əliyeva bütün bu xeyirxahlıq mücəssəməsi olduğuna görə bir çox nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. "Geniş həcmli xeyriyyəçilik fəaliyyətinə görə" 2007-ci il mayın 27-də Azərbaycanın birinci xanımına təqdim olunan "Qızıl ürək" mükafatının təqdimat mərasimində Mehriban xanım demişdir: "Mən hesab edirəm ki, bu mükafatın laureatlarının xeyirxah işləri mərhəmətliliyə çağırışdır. Arzu edirəm ki, xeyirxahlıq ilbəil artsın. Dərd, qüssə isə azacıq da olsa, əskilsin..."

2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın xoşməramlı, zərif niyyətli fəaliyyəti dövlət başçısı tərəfindən də yüksək dəyərləndirilib: "O, insanlara xoş münasibəti, xoş niyyəti, xoş ünsiyyəti ilə seçilib. Bu, onun xasiyyətinin ən fərqləndirici cəhətidir. Mən əminəm ki, Mehriban Əliyeva xeyriyyəçilik, insansevərlik, mərhəmət, Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, düşüncəsinə, əsrlərdən bəri formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətləri davam etdirməyə çalışacaq".

Bu gün də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yurdunu erməni təcavüzü nəticəsində itirmiş insanların doğması, əzizi, himayədarı kimi sevilir. Xocalıdan olan məcburi köçkün Nəsibə Allahyarova birinci xanımın sadəliyindən, mehribanlığından, səmimi görüşlərindən söz açaraq deyirdi: "...Qəsəbəmizin açılışında Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva bizdə də oldular. Onların sadəliyi, səmimiliyi bizi çaşdırmışdı. Elə bildim, qardaşım, bacım qonaq gəlib bizə... Problemlərimizlə maraqlandılar. Qızımızın nişanlı olduğunu biləndə Mehriban xanım dedi ki, onun bütün cehizini alacağıq..."

Azərbaycanın Birinci vitse-prezidentinin çoxşaxəli fəaliyyəti nəinki respublikamızda, eləcə də ölkə hüdudlarından kənarda da daim yüksək qiymətləndirilib. Fəaliyyətində daim humanizm prinsiplərini əsas götürən Mehriban xanım Əliyevanın sivilizasiyalar və dinlərarası dialoqdakı xidmətləri də ona beynəlxalq aləmdə böyük nüfuz qazandırıb.

**Məhəmməd NƏRİMANOĞLU,**
**"Azərbaycan"**

## Salome ZURABİŞVİLİ: "Azərbaycan Prezidenti İlham Əliyev zəmanəmizin ən uğurlu liderlərindən biridir"



TANAP layihəsinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xidmətləri əvəzsizdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Prezidenti Salome Zurabişvili söyləyib.

Onun sözlərinə görə, son illər tək TANAP layihəsi deyil, Azərbaycan, Gürcüstan və Türkiyənin birgə iştirakı ilə bir çox layihələr reallaşıb. Bu layihələrin həyata keçirilməsində Azərbaycan Prezidentinin xüsusi rolu olub.

Salome Zurabişvili deyib: "Azərbaycanın enerji resurslarının Gürcüstan ərazisindən keçməklə Avropaya nəqli ondan xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəmanəmizin ən uğurlu liderlərindən biridir".

## İslahatların səmərəliliyi dayanıqlı iqtisadi inkişafın təminatından keçir

Əvvəli 1-ci səh.

Bu ilin 10 ayı ərzində meyvə-tərəvəz ixracı 455,5 milyon, plastmas və ondan hazırlanan məmulatların ixracı 161,2 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 106,9 milyon, pambıq lifi ixracı 91,8 milyon, kimya sənayesi məhsullarının ixracı 86,6 milyon, elektrik enerjisinin ixracı 62,9 milyon, qara metallar və ondan hazırlanan məmulatların ixracı 50,9 milyon, pambıq ipliyi ixracı 24,5 milyon, şəkər ixracı 24,2 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 21,4 milyon dollarlıq olub. Həmin dövrdə alkoqollu və alkoqolsuz içkilərin ixracı 62, plastmas və ondan hazırlanan məmulatların ixracı 56, pambıq lifinin ixracı 42, kimya sənayesi məhsullarının ixracı 36, pambıq ipliyinin ixracı 28, meyvə-tərəvəz ixracı 12, şəkər ixracı 10, elektrik enerjisi ixracı 6 faiz artıb.

Cari ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma 27,1 milyon dollarla birinci, qızıl (sikkə kəsilməsində istifadə edilməyən, digər emal olunmamış formalarda) 21,4 milyon dollarla ikinci, qabığı təmizlənmiş fındıq 10,7 milyon dollarla üçüncü yerdə qərarlaşıb.

Bu ilin yanvar-oktyabr aylarında Azexport.az portalına 477,4 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə sifarişlərin sayı 10,3 faiz artıb. Təkcə oktyabr ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri 41 milyon dollar təşkil edib ki, bu da ötən ilin müvafiq ayı ilə müqayisədə 78 faiz çoxdur. Həmin dövrdə portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya, Türkiyə, İngiltərə, Hindistan və ABŞ qərarlaşıb.

Cari ilin oktyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq lifi və pambıq toxumu, fındıq ləpəsi, toyuq əti və yumurtası, sarımsaq, biyan kökü, tütün, qənnadı məhsulu, şərab, mebel dəsti, çay, tikinti materialı, soğan, mühərrik yağı, alma, kosmetik vasitə, nar şirəsi, qurudulmuş meyvə, qızılgül və s. mallar üzrə daxil olub.

**Rüstəm KAMAL,**
**"Azərbaycan"**

# Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının sağlamlığı və rifahı dayanır

Əvvəli 1-ci səh.

Bu yerdə bir neçə gün əvvəl Moskva Energetika İnstitutuna 1974-cü ildə Ulu Öndərin oxumağa göndərdiyi milli kadrlarının aradan 44 il keçəndən sonra kiçik bir görüşünü xatırlamaq yerinə düşərdi. Bu görüşə həm də Almaniyadan o zaman bizimlə oxuyan Hartmut adlı tələbə yoldaşımız da gəlmişdi. O bir neçə postsovet ölkəsində olduğunu, hətta ucqarlara belə gedib çıxdığını danışdı. Soruşduq ki, Hartmut, dolaşdığın yerlərdə Azərbaycanla müqayisədə fərqli nə gördün? Cavabı belə oldu: "Rusiyada boşalan kəndlər gördüm, yüzlərlə evi atıb gediblər, qocalar qalıb. Xəstəxana yoxdur, məktəb yoxdur, mağaza yoxdur. İnsanları ümidsiz gördüm! Amma Azərbaycanda harda olsam, insanların üzündə bir ümid gördüm. Burda kəndlər yerindədi, hamının sabaha inamı var".

Əgər dövlət başçısı evsiz-eşiksiz qalmış insanların problemlərinə bu cür diqqətlə yanaşırsa və onların evlərinin tikilməsini təcili həll edirsə, əlbəttə ki, belə ölkədə insanlar sabaha ümidlə baxacaqlar. Çünkü inkişaf etmiş ölkələrin özlərində belə təbii fəlakətlə üzləşənlərə yalnız sığorta olduğu halda yardım edilir. Azərbaycan Prezidenti insanların rifahının yüksəlməsini, sosial qayğılarının həllini dövlət siyasətində prioritet istiqamət kimi elan edib. Dövlətimizin niyyəti vətəndaşların problemlərini daim diqqət mərkəzində saxlamaqdır.

Şamaxı seysmik zonada yerləşən şəhər kimi tarixən dəfələrlə dağıdıcı zəlzələlərə məruz qalıb. Elə olub ki insanlar şəhəri atıb gediblər, elə də olub ki, şəhər zəlzələlərdən uzun müddət ayağa qalxmaq iqtidarında olmayıb. Həm zəlzələlərdən, həm də erməni vandallığından bu şəhərdə ziyan çəkən məscid də Prezidentin qayğısı və dəstəyi sayəsində bərpa edildi, dünya mədəniyyəti inciləri sırasında layiqli yerini aldı.

Sonuncu zəlzələdən sonra Şamaxı rayonu üzrə 580 fərdi ev, 44, 20 və 110 mənzildən ibarət hündürmərtəbəli üç bina tikilmiş, rayon üzrə 1175 evdə bərpa işləri aparılmışdır. Şamaxı ölkəmizin məşhur turizm şəhərlərindən birinə çevrilməkdədir.

Dekabrın 5-də Prezident Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında da iştirak etmişdir. Kompleks Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarında qeydiyyatda olan 450 minə yaxın vətəndaşa xidmət göstərəcək, bu mərkəzdə ümumilikdə 320-dən çox növdə xidmət həyata keçiriləcək.

Dövlət başçısı Şamaxıda keçirdiyi bütün görüşlərdə və çıxışlarında, sadə adamlarla söhbətlərində bir sıra vacib məsələlərə toxundu və beləliklə, əyalətdən paytaxta və bütün ölkəyə mesaj göndərdi. Prezident Administrasiyasının, Nazirlər Kabinetinin yenidən formalaşmasından, gənclərin dövlət quruculuğuna daha geniş miqyasda cəlb edilməsindən danışdı. Prezident artıq islahatların intellektual mərhələyə qədəm qoyduğunu bəyan etdi: "...yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır. Eyni zamanda mən onu da bildirməliyəm ki, biz nəsillər arasında ziddiyyətlərə yol verə bilmərik. Çünki bu, hər bir cəmiyyətdə var. Yaşlı nəsildən olan bir çoxları həmişə gənc nəsildən narazıdır. Ona görə biz bunu başa düşməliyik. Nəsillər arasındakı anlaşılmazlıq hər bir cəmiyyətdə var. Amma bizim cəmiyyət mühafizəkar cəmiyyətdir, konservativ cəmiyyətdir və ənənəvi dəyərlər üzərində qurulmuş cəmiyyətdir. Biz, əlbəttə, imkan verə bilmərik ki, bu təbii ziddiyyətlər hansısa böyük bir problemə çevrilsin".

Dekabrın 6-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə də tanış oldular.

Nəsiminin qardaşı Şahi Xəndanın xatirəsinə buradakı məzarlıq Şahxəndan qəbiristanlığı adlanır. Qəbiristanlıqdakı bu ərazi məhəccərlərlə hörülü idi. İndi əhalinin razılığı ilə məhəccərlər sökülüb və ərazi abadlaşdırılıb. Avstriyalı bərpaçı-memar Erik Pumerin tövsiyələri və təlimatı əsasında Heydər Əliyev Fondunun dəstəyi ilə burada bərpa işləri aparılır. Avstriyadan olan bərpaçı alimlər Şamaxıdakı tarixi Gülüstan qalasının bərpası layihəsinin də üzərində çalışırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak etməklə bölgəyə səfərlərinə yekun vurdular. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min, o cümlədən Şamaxıda 50 min ağac əkilib.

Dövlət başçısının keçirdiyi görüşlər, baş çəkdiyi ünvanlar, sadə insanlarla və yerli dövlət məmurları ilə görüşlərində dedikləri, çıxışlarının məzmunu, dövlət quruculuğu ilə bağlı açıqlamaları belə qənaətə gəlməyə imkan verir ki, İlham Əliyev Şamaxıdan islahatların ruhuna sadiq qalacağını bütün ciddiyyəti ilə bəyan etdi. Bir daha alman mühəndisi Hartmutun Azərbaycanda insanların sabaha ümid bəslədiklərini görməsi yada düşür.

Bu gün Şamaxıya kim gəlir gəlsin, muğamın ruhu qonan küçələri dolaşsın, abidələrə baş çəksin, dəfələrlə dağıdıcı zəlzələlərdən baş qaldıran əyalət şəhərinin qədim mədəniyyət mərkəzi olduğunu görəcək, onun həm dövlət, həm də insanlar tərəfindən sevilib qorunduğunu hiss edəcək. Tarixini, keçmişini qoruyan, bu günün uğurlarına dəyər verib qiymətləndirən xalqın gələcəyi də nikbindir.

**Bahadur İMANQULİYEV,**
**"Azərbaycan"**

# İnfrastruktur layihələri şəhərlərin və kəndlərin simasını dəyişib

Əvvəli 1-ci səh.

Camaat kəndlərdəki evinin darvazasına qıfıl vurub Bakıya və digər iri şəhərlərə axışırdı. Çoxları ümumiyyətlə, yaxşı dolanışıq, iş yeri axtarışında ölkəni tərk edirdi. Heç paytaxtımızın özündə də bəzən sakinlər kifayət qədər elektrik enerjisi ala bilmirdilər. Prezident İlham Əliyev həmin dövrü xatırlayaraq demişdir: "Vaxt var idi ölkəmizi qaranlıq bürümüşdü. Vaxt var idi gecə saat 12-də televizor da söndürülürdü ki, elektrik enerjisinə sərfiyyat azalsın. Biz xaricdən elektrik enerjisini alırdıq və özümüzü güc-bəla ilə təmin edirdik. İndi biz xaricə elektrik enerjisi ixrac edirik. Ölkə daxilində bütün bu işlər görülüb".

Bu sahədə son 15 ildə, yəni keçən ilin sonunadək 31 yeni stansiya tikilib, 2500 meqavatlıq yeni güclər yaradılıb. Cari ilin sentyabr ayında Bakıda "Şimal-2" elektrik stansiyası istifadəyə verildi. Təkcə "Şimal-1" və "Şimal-2" stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovat-saat təşkil edir. Elektrik enerjisinin bol olması təkcə işıqlı evlər və küçələr demək deyil. Onsuz gündən-günə sayı artan yeni-yeni sənaye müəssisələrinin, genişlənən xidmət şəbəkəsinin fəaliyyəti mümkün olmazdı.

15 ildə 15 min kilometr yolun çəkilməsi misilsiz bir işdir. Son dövrdə təkcə magistral yollar deyil, bölgələri bir-birilə bağlayan, hətta kəndarası yollar da çəkilib, yaxud əsaslı təmir olunub. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu öz hesabatında Azərbaycanda çəkilən yolların keyfiyyətini yüksək dəyərləndirir. İndi dağlıq bölgələrimizin ən ucqar kəndlərinə qədər rahat avtomobil yolları uzanır. Bir çox rayonların illərlə insanlara narahatlıq gətirən yolları Prezident İlham Əliyevin sərəncamları ilə tam təmir edilib, yeni yollar salınıb.

Ən önəmlisi isə odur ki, bu proses davamlı xarakter daşıyır. Cari il yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda dövlət başçısı bəyan etmişdir ki, builki Dövlət İnvestisiya Proqramına əsasən, yüzlərlə kəndin yolları abadlaşdırılacaq, o cümlədən magistral yolların tikintisi təmin ediləcək.

Yolların rəvanlığı isə həm də kəndlinin zəhmətlə əkib-becərdiyi məhsulu vaxtında və itkisiz bazara çatdırması, ailə büdcəsinə gəlir gətirməsi deməkdir.

Son dövrlərdə Azərbaycana gələn turistlərin təkcə paytaxtımızı görməklə kifayətlənməməsi, həvəslə bölgələrə də üz tutmasına yolların böyük təsiri var. Şübhəsiz ki, yeni yollar Azərbaycanın bütün rayonlarının zəngin turizm potensialından istifadə olunmasında böyük rol oynayacaq.

İndi qaz xətləri də ən ucqar kəndlərə çatıb. Ölkədə qazlaşmanın səviyyəsi 96 faizi ötür. Sovet dövrünün ən inkişaflı illərində belə qazdan istifadəyə imkanı olmayan uzaq kəndlərdəki evlərdə mavi alov şölələnir. Əhali bunu çox yüksək dəyərləndirir. Təsadüfi deyil ki, ilk dəfə qaz xətləri çəkilən ən ucqar yaşayış məntəqələrində bu hadisə sakinlərin böyük sevincinə səbəb olur və onlar dövlət başçısına minnətdarlıq duyğularını öz ürək sözləri ilə ifadə edirlər.

Bir sıra bölgələrdə qazın verilməsi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə qeyd olunub. Məsələn, İsmayıllı rayonunun dağların qoynunda yerləşən Lahıc kəndinin sakinləri evlərinə qaz çəkilməsindən duyduqları sevinci dövlət başçısı və birinci xanımla bölüşdüklərindən çox məmnun qalmışlar.

İçməli və meliorasiya suyu layihələri də davam etdirilir. Dörd böyük su anbarı - Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay anbarları torpağı canlandırıb, bağlara, tarlalara, çöllərə yeni həyat gətirib. Onların ümumi tutumu 470 milyon kubmetrdir. Bundan əlavə, hər il dövlət vəsaiti hesabına ən azı 300 subartezian quyusu qazılır.

Ölkədə içməli su ilə təminat ildən-ilə daha da yaxşılaşır. Bu istiqamətdə 38 şəhərdə layihələr başa çatdırılıb. Bu il həmin sıraya daha 5 şəhər daxil olacaq. 12 şəhərdə isə içməli su layihəsinə başlanıb və bu proses davamlıdır. Görüləcək işlər regionların sosial-iqtisadi inkişafına yönəldilən IV Dövlət Proqramında da öz əksini tapıb.

Həyata keçirilmiş layihələr genişmiqyaslı və çoxşaxəlidir. Bununla belə, yenə də yollar çəkilir, körpülər salınır, məktəb və uşaq bağçaları, tibb müəssisələri inşa edilir, məcburi köçkünlər üçün mənzillər və evlər tikilir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin yeritdiyi sosial-iqtisadi siyasətin ayrılmaz hissəsidir və vətəndaşın rifahının dövlət üçün başlıca prioritet olduğunu bir daha təsdiqləyir.

**Flora SADIQLI,**
**"Azərbaycan"**

## TRASEKA çərçivəsində indiyədək 1 milyard tondan çox yük daşınıb

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (TRASEKA) çərçivəsində indiyədək 1 milyard tondan çox müxtəlif yüklər daşınıb.

Bu barədə "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş"in imzalanmasının 20 illiyinə həsr olunmuş beynəlxalq konfrans və TRASEKA Hökumətlərarası Komissiyasının XIV iclasında TRASEKA-nın baş katibi Mirça Çiopraqa deyib.

"Ötən dövrdə dəhlizlə daşınan yüklərin 50 faizi karbohidrogenlərin payına düşüb. TRASEKA çərçivəsində Avropa İttifaqı ilə birgə ümumi dəyəri 187 milyon avro olan 85 layihə reallaşdırılıb. Bütövlükdə dəhliz çərçivəsində infrastrukturun inkişafına 4 milyard avro investisiya qoyulub", - deyə M.Çiopraqa bildirib.

## İlin sonunadək "Yaşıl dəhliz"lə 7 milyard dollarlıq ticarət əməliyyatlarının aparılması proqnozlaşdırılır

"Cari ilin sonuna kimi "Yaşıl dəhliz" buraxılış sistemi vasitəsilə təxminən 7 milyard dollar dəyərində ticarət əməliyyatlarının aparılması nəzərdə tutulur".

Bu sözləri "Caspian European Club"un üzvləri ilə görüşdə səsləndirən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bildirib ki, həmin ticarət əməliyyatları heç bir gömrük əməkdaşının iştirakı olmadan, sahibkarların "Yaşıl dəhliz"dən istifadəsi nəticəsində aparılıb. Hazırda bu göstərici 6,4 milyard dollar səviyyəsindədir.

## Hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə toplantı keçirilib

Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində illik toplantı keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplantıda idarə rəisi general-mayor Hüseyn Mahmudov hərbi attaşelərə və beynəlxalq təşkilatların nümayəndələrinə regiondakı hərbi-təhlükəsizlik vəziyyəti, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, Azərbaycan Ordusunda aparılan islahatlar, quruculuq işləri, hərbi-təhsil sistemi və bu sahədə əldə olunan nailiyyətlər, eləcə də beynəlxalq hərbi əməkdaşlığın prioritetləri və istiqamətləri, növbəti ildə planlaşdırılan fəaliyyətlər haqqında ətraflı məlumat verib.

Bakı Hərbi Attaşelər Assosiasiyasının duayeni, Çin Xalq Respublikasının hərbi attaşesi baş polkovnik Çjan Tsunqo toplantının keçirilməsinə görə həmkarları adından Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib. O, səmərəli əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduqlarını vurğulayıb.

## Ermənistan silahlı qüvvələrinin bölmələri snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Azərbaycanın və Polşanın hərbi hüquq ekspertləri Bakıda müzakirələr aparıblar

Azərbaycanın və Polşanın Müdafiə nazirlikləri arasında imzalanmış illik hərbi əməkdaşlıq planına əsasən, Bakıda iki ölkənin hərbi hüquq üzrə ekspertlərinin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə hüquq xidmətinin təşkili məsələləri, hərbi qanunvericilik və hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qazanılan təcrübəyə dair qarşılıqlı fikir mübadiləsi aparılıb. Həmçinin hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsinin xüsusiyyətləri, eləcə də bir sıra digər məsələlər müzakirə olunub.






Gənclik






● Gələcəyə dəstək



# Könüllülük hərəkatı geniş vüsət alır

## Azərbaycan Prezidenti Şamaxıda “ASAN xidmət”in açılışında iştirak edərkən bir daha gəncləri bu sahədə fəal olmağa çağırdı

**Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan “ASAN xidmət”in fəaliyyəti artıq regionlarda da ölkə əhalisi tərəfindən rəğbətlə qarşılanır. Dövlət başçısı bu günlərdə Şamaxıya səfəri çərçivəsində “ASAN Həyat” Mərkəzinin açılışı zamanı bir daha bu məsələyə toxundu. Ölkə rəhbəri bildirdi: “Şadam ki, “ASAN xidmət”in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Yəni bu, onu göstərir ki, xidmət doğrudan da böyük nailiyyətdir, ictimai xidmətlər sahəsində böyük dəyişikliklərə gətirib çıxarıb”.**

Vaxtilə ictimai xidmətlər sahəsindəki bürokratiya, süni əngəllər, süründürməçilik və digər neqativ hallar vətəndaşların haqlı narazılığına və şikayətlərinə gətirib çıxarırdı. Lakin “ASAN xidmət”in yaradılması və əhalinin bütün təbəqələrinin rəğbətini qazanması bu gün reallıqdır. Əgər belə olmasaydı dövlət başçısının da xüsusi qeyd etdiyi kimi, bu xidmət sektoruna müraciət edənlərin sayı 34 milyondan çox olmazdı. Vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin qarşısının alınması baxımından nümunəyə çevrilən “ASAN xidmət”in coğrafiyası genişlənməkdədir.

Bu xidmət mərkəzinin 16-cısı Şamaxıda açıldı. Buna qədər isə paytaxt Bakıda 5 mərkəz fəaliyyət göstərirdi. Onlara müraciət edənlərin sayının gündən-günə çoxalması da adıçəkilən xidmətin özünü doğrultması, vətəndaşların rahatlığının təmin edilməsi deməkdir. Məhz buna görə də dövlət başçısının tapşırığına əsasən paytaxtda daha iki “ASAN xidmət” mərkəzinin açılması nəzərdə tutulub. Sumqayıt və Gəncədə də belə mərkəzlərin yenilərinin açılmasına ehtiyac duyulduğunu diqqətə çatdıran Azərbaycan Prezidenti onu da vurğuladı ki, “ASAN xidmət”in səyyar fəaliyyət coğrafiyası da genişlənir. 10-dan artıq avtobus ölkənin ərazisini dolaşır. “ASAN qatar”ın da fəaliyyətini bura əlavə etsək, ölkə əhalisinin bu sahəyə ehtiyacının necə yüksək şəkildə təmin olduğu barədə real vəziyyəti yarada bilərik.

Azərbaycan Prezidenti “ASAN xidmət”in artıq respublikamızın hüdudlarından kənarda da fəaliyyətə başladığını məmnunluqla qeyd etdi. Həmin sektorun özəlliyi bir də ondadır ki, burada çalışanların əksəriyyəti gənclərdən ibarətdir. Bu da dövlət gənclər siyasətinin tərkib hissələrindən biridir. Onların məşğulluğunun təmin olunması, xalqa xidmət mədəniyyətinin yüksəldilməsi, istedad və bacarıqlarının, eyni zamanda, vətənpərvərliklərinin təsdiqlənməsi üçün yaradılan şərait deməkdir.

“ASAN xidmət”lərdə təlim keçmiş, yaxud da işləmiş gənclərimizin həyata da vəsiqə aldıqlarını, bilikli kadrlar kimi onlara inamın artdığını diqqətə çatdıran ölkə rəhbəri bildirdi: “Bilikli, savadlı, vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, vətənə bağlı olmalıdırlar, vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar”.

Kompleksin əməkdaşlarından olan Jalə Hüseynova hələ ali məktəbdə oxuyarkən Bakıda “ASAN xidmət” mərkəzində könüllü kimi fəaliyyət göstərdiyini qeyd etdi. O, Prezidentin Gənclər Günü münasibətilə respublika gəncləri ilə görüşündə “ASAN könüllü”sü kimi iştirak etdiyini xatırlatdı. Bildirdi ki, dövlət başçısı gənclərə hər zaman vətənpərvərlik ruhunda tərbiyə olunmalarını, öz dillərini, dəyərlərini qorumalarını və hansı sahədə işlədiklərindən asılı olmayaraq, öz işlərinin peşəkarına çevrilmələrini məsləhət görmüşdür. “...Həmin görüş mənim həyatımın dönüş nöqtələrindən biri oldu. Mən də qərar verdim ki, bu yolda addımlamalıyam və dövlət qulluğuna hazırlaşdım. Mən çox şadam ki, fevral ayında Sizin qarşınızda könüllü kimi dayanmışdım, bu gün isə dövlət qulluqçusu kimi dayanıram...”

Ölkəmizdə keçirilən bir çox möhtəşəm tədbirlərdə könüllülük fəaliyyətinə qoşulmuş Toğrul Cəfərov qeyd etdi ki, “Bakı-2015” Avropa Oyunları, “Bakı-2017” İslam Həmrəyliyi Oyunları, daha sonra üç il davam edən “Formula-1” yarışlarında, 2016-cı ildə təşkil olunan Şahmat Olimpiadasında könüllü kimi çıxış edib. İndiyədək “ASAN xidmət” ailəsinin bir fərdi könüllüsü olduğunu bildirən T.Cəfərov onu da vurğuladı ki, könüllü olan zaman bizim şəxsi inkişafımız üçün bir sıra təlimlərin, seminarların keçirilməsi, ən kiçik ehtiyacımızdan tutmuş ən böyüyünün həlli məhz dövlət başçısının gənclərə, könüllülərə göstərdiyi qayğı və diqqət nəticəsində olub. “Siz çıxışlarınızın birində qeyd etmişdiniz ki, ölkəmizdə könüllülük fəaliyyəti var və bu könüllülük fəaliyyəti daim yaşayır. Biz də öz növbəmizdə Sizə söz vermək istəyirik ki, bu illər ərzində keçdiyimiz bütün təcrübələri, Sizin bizə olan qayğınızı, diqqətinizi Şamaxı gəncləri ilə bölüşəcəyik. Bu könüllülük fəaliyyətini daim yaşadacağıq” deyə Toğrul Cəfərov bildirdi.

*Zöhrə FƏRƏCOVA, “Azərbaycan”*

● Vətənpərvərlik tərbiyəsi

# Tərtər gəncləri sabaha inamla baxırlar

**Uğurlu illər sırasında mühüm ictimai-siyasi hadisələrlə, yüksək sosial-iqtisadi inkişaf tempi ilə yadda qalacaq 2019-cu il artıq başa çatmaq üzrədir. 2019-cu ilin qürurverici töhfələri cəbhə bölgəsi olan Tərtər rayonunda da diqqət çəkir.**

Prezident İlham Əliyevin cəbhə bölgələrinə xüsusi qayğı və diqqəti sayəsində son illər Tərtərin siması müqayisə edilməyəcək dərəcədə dəyişib gözəlləşmiş, rayon mərkəzi də, kəndlər də abad görkəm almış, bölgə əhalisinin güzəranı, həyat səviyyəsi əsaslı şəkildə yaxşılaşmışdır.

Dövlətin davamlı qayğısından güc alan tərtərli gənclər yeni quruculuq dövrünün fəal iştirakçılarıdır. “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramında qarşıya qoyulan vəzifələr rayon gənclər və idman idarəsi olaraq bizim fəaliyyətimizə yeni və aydın istiqamət verir. Biz tikinti, abadlıq-quruculuq işlərində fəal iştirak etməklə, kənd təsərrüfatının müxtəlif sahələrində çalışaraq ölkənin Ərzaq Təhlükəsizliyi Proqramına sanballı töhfələr verməklə yanaşı, yüksək intellektual səviyyəyə malik, vətəni canından artıq sevən yeni nəsil yetişdirilməsinə böyük önəm veririk. Uğurla reallaşan təşkilati, ideoloji işin nəticələri isə fərəhlidir. Ölkənin nüfuzlu ali məktəblərinə qəbul olunan tərtərli məzunların sayı ildən-ilə artmaqdadır. Bu il təkcə Bakı Dövlət Universitetinə qəbul olunan tərtərli gənclərin sayı 50 nəfərdən çoxdur. Dövlətin, eyni zamanda Heydər Əliyev Fondunun qayğısı ilə rayonumuzda onlarla məktəb, uşaq bağçası tikilib istifadəyə verilmiş, təhsilin maddi-texniki bazası əsaslı şəkildə möhkəmlənmişdir.

Rayon gənclərinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi gənclər və idman idarəsi olaraq fəaliyyətimizin əsas istiqamətini təşkil edir. Rayonun gənc və yeniyetmələrinin ərazidə yerləşən hərbi hissələrə vaxtaşırı səfərləri artıq bir ənənəyə çevrilmişdir. Hərbi hissələrdə əsgər və zabitlərlə maraqlı görüşlər, döyüş texnikası, müxtəlif hərbi silah-sursatlarla əyani tanışlıq gənclərin xarakterinə əhəmiyyətli dərəcədə təsir edir, onlarda hərb peşəsinə güclü maraq yaradır. Təsadüfi deyil ki, respublikada vaxtaşırı keçirilən “Şahin” hərbi-idman yarışlarında tərtərli yeniyetmələr həmişə fərqlənirlər.

18 Oktyabr - Müstəqillik Günü münasibətilə Tərtər Rayon İcra Hakimiyyətinin, rayon Gənclər və İdman İdarəsinin və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Azərbaycanın dövlət müstəşilliyinin bərpasının 28-ci ildönümü münasibətilə “Müstəqilliyimiz əbədidir” şüarı altında möhtəşəm yürüş keçirilmişdir. Yürüş 7 kilometr məsafəni əhatə etmişdir. Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi, rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 9 Noyabr - Bayraq Günü “Dalğalan ey bayrağım” adlı aksiya həyata keçirilmişdir. Aksiya çərçivəsində rayonun mərkəzi küçələrində, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün çoxmənzilli yaşayış binalarında, eləcə də erməni işğalından azad edilmiş Şıxarx qəsəbəsində məcburi köçkünlər üçün salınmış yaşayış kompleksindəki binalardan üçrəngli milli bayraqlar asılmışdır.

Həmin gün keçirilən yürüşün finalında 180 nəfər məktəblinin iştirakı ilə Azərbaycan Respublikasının Dövlət Bayrağını əks etdirən fləşmob nümayiş etdirilmişdir. Yürüşün keçirilməsində məqsəd milli artibutlarımızın təbliği, gənc və yeniyetmələr arasında hərbi-vətənpərvərlik hissinin, milli-mənəvi dəyərlərə məhəbbətin aşılanmasıdır.

Hər zaman dövlətinə, Prezidentinə sədaqətli olan Tərtər gəncləri sabaha inamla baxırlar. Onlar doğma Qarabağı erməni işğalından azad etməyə, düşməndən layiqli qisas almağa hər an hazırdırlar.

*Emin PƏNAHOV,*
*Tərtər Rayon Gənclər və İdman İdarəsinin rəisi*

● Tədbir

# “Könüllülər inklüziv gələcək üçün” adlı seminar keçirilib

**Sumqayıt Gənclər Evində Azərbaycan Könüllüləri həftəsi çərçivəsində “Könüllülər inklüziv gələcək üçün” mövzusunda seminar keçirilib.**



Tədbirdə bildirilib ki, könüllülük fəaliyyəti gənclərin fərdi inkişafında əvəzsiz rol oynayır. Hər bir gəncin fəaliyyəti həm də bütün Azərbaycanın gələcəyi üçün atılmış addımdır. Belə tədbirlərin keçirilməsi şəhərdə könüllülük hərəkatının inkişafına öz töhfəsini verir. Məqsəd “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının 5.7.5-ci bəndinə müvafiq olaraq gənclər arasında könüllülük fəaliyyətinin daha geniş təbliğ edilməsinə, həyatın bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, ictimai həyatda fəallıq göstərmək və təcrübi biliklərini artırmaqdan ibarətdir.

Daha sonra təlimçi Rza Mirzəzadə könüllülük, onların idarəetmədə və vətəndaş cəmiyyətinin inkişafında rolu, ictimai fəallığının təmin olunması barədə biliklərini iştirakçılarla bölüşüb, gəncləri maraqlandıran sualları cavablandırıb.

*Akif ƏLİYEV, “Azərbaycan”*

**Tarixən inkişafı hədəfləyən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini gənc nəslin potensialı ilə uzlaşdırır və tərəqqiyönümlü siyasətin prioritetlərini müəyyənləşdirir. Əbədi müstəqillik, həmçinin planlaşdırılan nəticələrin əldə olunması üçün intellektual və sağlam gəncliyin yetişdirilməsi əsas məsələlərdən hesab edilir. Cəmiyyət üçün perspektivli gənclərin prototipində yaxşı təhsilli, intellektual, çevik, sosial-iqtisadi inkişafın tələblərinə adekvat fəaliyyət göstərmək bacarığına malik, eləcə də həyata keçirilən islahatların aparıcı qüvvəsinə çevrilə bilən cavan və dinamik zümrələr durur.**

# Güclü lideri olan xalq yenilməzdir

Sadalanan məziyyətləri özündə birləşdirən gənc nəsillər cəmiyyətin elm, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak etməklə, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Müsbət dəyişkənlik, o cümlədən inkişaf tendensiyaları hər nə qədər tərəqqini hədəfləyən ölkələr üçün real vəziyyətin qiymətləndirilməsində başlıca meyar hesab edilsələr də, tərəqqi naminə sabit və dəyişməz dəyərlər (ənənələrə sadiqlik, milli keçmişi yaddaşında həkk etmək və hər bir fəaliyyətində onları rəhbər tutmaq və s.) də var ki, onlar xalqın iradəsinin möhkəmliyində, varlığının əbədiyyətində bir o qədər həlledici amilləri formalaşdırırlar. Bu mənada Azərbaycanda həyata keçirilən gənclər siyasətinin reperində keçmişimizə, milli-mənəvi dəyərlərimizə bağlılıqla inkişafı hədəfləyən fəaliyyətin təşkilinə hesablanan harmonik və proqressiv tendensiyaları görürük. Əslində, Azərbaycan Prezidenti İlham Əliyevin gənclər siyasətilə bağlı müəyyənləşdirdiyi inkişaf strategiyasında, həmçinin islahatlar dövrünün intibahında səsləndirdiyi çıxışlarının hər birində keçmişə bağlılıq, gənc nəslə inam kimi çağırışların təsadüfi olmadığı qənaətinə cəsarətlə varmaq olar.

Ölkə Prezidenti müraciətlərində Azərbaycan gəncliyinin mənəvi ruhuna üz tutur, gənc nəslin vətən sevgisinə əsaslanır. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan gənci yeri gəldikdə döyüş meydanlarında zəfərlər üçün igidlik göstərmişdir. Gənclərimiz dünya mədəniyyətinə töhfələr vermişdir. Böyük elmi ixtiraları və kəşfləri ilə dünyanı heyrətə gətirən gənclərimiz az olmamışdır. Bu gün böyük iftixarla deyə bilərik ki, müasir Azərbaycan gəncliyi tarixi kökündən, genindən qidalanan milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalarımızın hər bir mirasını göz bəbəyi kimi qoruyub yaşadır. Onlar Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilir, müstəqilliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edir, tarixi nailiyyətlərin episentrində durublar. Azərbaycan gənci öz həyatını qurarkən öncə müstəqil ölkəmizin bugünü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Əlbəttə, buna gənclərimizin yüksək potensialı, əldə etdikləri bilikləri və güclü vətənpərvərlik hissləri tam imkan verir.



Prezidentin nitqlərində də ən vacib amil gənclərin bilikli, savadlı olmaları, yeni peşələri mənimsəmələri, dəyişən dövrün tələbləri ilə uyğunlaşmaları ön plana çəkilir. Bilik və savad gənclərin yaxşı təminatlı gələcəyini müəyyən edən dəyər kimi qiymətləndirilir. Deməli, gənclər savadlı böyüməli, o cümlədən dərin biliklərə yiyələnməli və daim mütaliəli olmalıdırlar. Bütün bunlar onlara iş tapmaqda, karyera qurmaqda, ölkəmizi ən yüksək səviyyələrdə təmsil etməkdə, bir sözlə, hərtərəfli inkişaf etmiş intellektual fərdin yetişməsində Azərbaycanın firavan gələcəyinə xidmət etmək nöqteyi-nəzərindən mühüm rol oynayır.

Gənc nəsillərimiz üçün müasir milli-mənəvi dəyərlərin, eləcə də inkişafları ilə bağlı intihab dövrünün formalaşmasının təməlində müdrik siyasi baxışlar və onların nəticələri durur. Əgər bu gün Azərbaycan gəncliyi yüksək intellektli aparıcı qüvvə kimi formalaşıbsa, bu prosesin ritmində davamlılıq göz oxşayırsa, onda birmənalı olaraq dövlətimizin yürütdüyü yaxın keçmişimizə bağlı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin tarix nöqteyi-nəzərindən başlanması və bərqərar olması Ümummilli Lider Heydər Əliyev fenomeninin şah əsərlərindəndir. Ulu Öndərin Azərbaycan xalqı üçün müəyyənləşdirdiyi gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli- mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Heydər Əliyevin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının qarantıdır. Ümummilli Lider həmişə gənclərimizə böyük ümidlər bəsləmiş, dəfələrlə qeyd etmişdir ki, Azərbaycanın xoşbəxt gələcəyi gənclərin əlindədir. Prezident İlham Əliyevin çıxışlarında səsləndirdiyi “Milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə alan gənclər müstəqil Azərbaycanı gələcəyə inamla aparacaqlar” fikri də siyasi varislik və dəyişməz hədəflər baxımından olduqca əhəmiyyətlidir.

Dövlət başçısının çıxışlarının demək olar ki, əksəriyyətində, o cümlədən son dövrlərdə ölkəmizdə keçirilən böyük islahatların mərkəzində Azərbaycan gənclərinin fəaliyyətinə xüsusi diqqət yetirilməsi gənclərə göstərilən böyük etimadın ifadəsidir. Eyni zamanda bu etimad, diqqət, qayğı bizim qarşımızda böyük vəzifələr müəyyənləşdirir və məsuliyyətimizi artırır. Bu mənada Azərbaycan Milli Elmlər Akademiyasında, o cümlədən ölkəmizin ali təhsil müəssisələrində fəaliyyət göstərən elmi gəncliyin üzərinə də mühüm vəzifələr düşür. Hazırda ölkə elminin nailiyyətlərinin dünyanın inkişafına töhfələr verməsi, Azərbaycan həqiqətlərinin elmi obyektivlik prinsiplərinə əsaslanmaqla dünyada təbliğ edilməsi məhz bu vəzifələrdəndir. Həmin vəzifələrin yerinə yetirilməsi üçün son illər ərzində gənc alimlərimiz yorulmadan çalışırlar. AMEA-da elmlə təhsilin vəhdətinin yaradılması, elmin populyarlığının artırılması, Azərbaycan gəncliyinin potensialının müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi, gənc mütəxəssislərin dünya elminə inteqrasiyası, eləcə də onların sosial şəraitinin yaxşılaşdırılması, asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində çoxşaxəli işlərin həyata keçirilməsi gənc alim və mütəxəssislərin fəaliyyətini daha da stimullaşdırır. Alimlərimizin tədqiqatlarında Azərbaycanda tarixən formalaşmış dini və milli dözümlülük mühitinin, multikulturalizmin Azərbaycan modelinin elmi əsaslarla öyrənilməsi də mühüm yerlərdən birini tutur.

Müasir tariximizdə gənclərə milli-mənəvi dəyərlərin aşılanması prosesinin əsas hədəfində Azərbaycanın müstəqilliyini qorumaq, o cümlədən onları yad təsirlərdən mühafizə etmək məqsədləri durur. Məlumdur ki, respublikamız son illər hər sahədə ciddi irəliləyişlər əldə etmiş, siyasi arenada nüfuz baxımından xeyli güclənmişdir. İqtisadi müstəqilliyimizin qorunması istiqamətində aparılan balanslaşdırılmış siyasət öz hədəflərinə hər ötən gün daha da yaxınlaşmaqdadır. Lakin təbii ki, qazanılan uğurlar, böyüyən hədəflər ölkəmizə qarşı yönələn təhdidlərin miqyasının artmasına rəvac vermişdir. Bununla bağlı bir sıra qüvvələr Azərbaycan gənclərini milli dövlətçilik təfəkküründən və dəyərlərdən uzaqlaşdırmağa çalışırlar. Belə qüvvələr Azərbaycan dövləti əleyhinə yalan üzərində formalaşdırılan müzakirələrin təşkilinə çalışırlar. Yalan gerçəklik kimi təqdim edilməklə informasiya manipulyasiyası formalaşdırılır. Bu mənfur məqsədin gerçəkləşdirilməsi üçün ilk növbədə cəmiyyətimizin ən dinamik və çevik qüvvələri hədəfə alınır. Lakin Azərbaycan gəncləri adından bütün anti-Azərbaycan təbliğatı aparan xarici və yerli qüvvələrə bəyan edirik ki, bizim böyük ümidlərimiz və hədəflərimizlə Prezident İlham Əliyevin ideyaları və yürütdüyü siyasət tamamilə üst-üstə düşür. Gəncliyə güvənən, onun xoşbəxtliyi üçün çalışan lideri olan xalq yenilməzdir, məğlubedilməzdir!

*Famin SALMANOV,*
*AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent*



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərə rəsmən start verib



Əvvəli 1-ci səh.

Komissiyanın iclasında seçki hüquqlarının pozulması ilə əlaqədar hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb və komissiya nəzdində 9 nəfərdən ibarət tərkibdə ekspert qrupunun yaradılmasına qərar verilib. Qanunvericilikdə nəzərdə tutulan müddətdən gec olmayaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə dairə seçki komissiyalarına həvalə edilib.

İclasda, həmçinin Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində və onlara əlavə edilən sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə müvafiq dövlət qurumlarının mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və MSK-nın üzvü işçi qrupunun rəhbəri təyin olunub.

Kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdikləri iclasda MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişiklik də olunub.

### QƏRAR № 15/60

### "2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Prezidentinin "Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" 5 dekabr 2020-ci il tarixli 1674 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilmişdir.

Azərbaycan Respublikasının seçki qanunvericiliyində nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin ardıcıl və keyfiyyətlə həyata keçirilməsi, seçki subyektlərinə metodiki yardım göstərilməsi və onların seçki prosesindəki fəaliyyətlərinin sadələşdirilməsi məqsədilə qarşıdan gələn parlament seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin yerinə yetirilmə ardıcıllığını, müddətlərini və subyektlərinin əhatə dairəsini müəyyən edən Təqvim Planının təsdiq edilməsi məqsədəmüvafiqdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.3-cü, 28.2-ci, 28.4-cü, və 145.1-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı" təsdiq edilsin.
2. Təqvim Planı dərc edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

*Sədr* *Məzahir Pənahov*
*Katib* *Arifə Muxtarova*
*Katib* *Mikayıl Rəhimov*

*07.12.2019*

### QƏRAR № 15/62

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasının nəzdində işçi qrupunun yaradılması və rəhbərinin təyin edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyin qeydə alınması üçün imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri müvafiq dairə seçki komissiyalarına təqdim edilməli, qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə araşdırma aparıldıqdan sonra seçki komissiyalarının nəzdində fəaliyyət göstərən işçi qrupunun rəyi də nəzərə alınmaqla namizədliyin qeydə alınıb-alınmaması məsələsi həll olunmalıdır.

Namizədliyin qeydə alınması məsələsinə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasında (Mərkəzi Seçki Komissiyası) yenidən baxılması zərurəti yarandığı halda müvafiq sənəd və məlumatların yenidən yoxlanılması məqsədilə Mərkəzi Seçki Komissiyasının nəzdində də xüsusi biliklərə malik mütəxəssislərdən ibarət tərkibdə işçi qrupunun yaradılması zəruridir.

İmza vərəqələrində və onlara əlavə edilmiş digər seçki sənədlərində olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59.2-ci maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Maliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vergilər Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin, Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertlər daxil edilməklə müvafiq işçi qrupu yaradılmalı və Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvlərindən biri qrupa rəhbər təyin edilməlidir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 59.2-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin və Azərbaycan Respublikası Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertərdən ibarət işçi qrupu yaradılsın.
2. Mərkəzi Seçki Komissiyasının üzvü Etibar Quliyev işçi qrupunun rəhbəri təyin edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

*Sədr* *Məzahir Pənahov*
*Katib* *Arifə Muxtarova*
*Katib* *Mikayıl Rəhimov*

*07.12.2019*

### QƏRAR № 15/61

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun yaradılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə seçki qanunvericiliyinin tələblərinə müvafiq olaraq seçkilər prosesində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada seçki komissiyalarının nəzdində ekspert qrupları yaradılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.1-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 5.1-ci və 5.2-ci bəndlərinə uyğun olaraq vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə, səsvermə gününə azı altmış gün qalmış, hər seçki (referendum) dövründə fəaliyyət göstərən, tərkibinə müvafiq seçki komissiyasının hüquqşünas üzvləri, o cümlədən peşəkarlıq, faktiki və hüquqi təhlillər aparmaq bacarığı, seçki sahəsində iş təcrübəsi, fəaliyyətinin qərəzsizliyi barədə ictimai inamın yüksək olması kimi meyarlara cavab verən seçki komissiyalarının digər (hüquqşünas olmayan) üzvləri və katiblik əməkdaşları daxil edilməklə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (Mərkəzi Seçki Komissiyası) nəzdində 9 nəfərdən, dairə seçki komissiyalarının nəzdində isə 3 nəfərdən ibarət müvafiq ekspert qrupları yaradılır. Seçki hüququnun pozulması ilə əlaqədar seçki komissiyalarına daxil olmuş şikayət və müraciətlərin araşdırılmasının təmin edilməsi və onların obyektivliyini və səmərəliliyini artırmaq məqsədilə yuxarıda göstərilən qaydada müvafiq ekspert qruplarının yaradılması zəruridir.

Ona görə də Mərkəzi Seçki Komissiyasının nəzdində bu Qərarın nəticə hissəsində göstərilmiş və yuxarıda göstərilən tələblərə cavab verən 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılmalı, mövcud dairə seçki komissiyalarının nəzdində qanunvericiliklə nəzərdə tutulmuş müddətdən gec olmayaraq müvafiq tələblərə cavab verən 3 nəfərdən ibarət tərkibdə ekspert qruplarının yaradılması isə həmin seçki komissiyalarına həvalə edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 112-1.1-ci maddələrinə, yuxarıda göstərilən Təlimatın 5.1-ci və 5.2-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyasının nəzdində aşağıdakı tərkibdə ekspert qrupu yaradılsın:

Ramiz İbrahimov - Mərkəzi Seçki Komissiyasının üzvü;
Validə Kazımova - Mərkəzi Seçki Komissiyasının üzvü;
İlham Məmmədov - Mərkəzi Seçki Komissiyasının üzvü;
Qabil Orucov - Mərkəzi Seçki Komissiyasının üzvü;
Bəxşeyiş Əsgərov - Mərkəzi Seçki Komissiyasının üzvü;
Tofiq Həsənov - Mərkəzi Seçki Komissiyasının üzvü;
İlkin Şahbazov - Mərkəzi Seçki Komissiyasının üzvü;
İlqar Əlizadə - Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri;
Rafiq Abbasov - Mərkəzi Seçki Komissiyası Katibliyi Hüquq şöbəsinin müdiri.

2. Dairə seçki komissiyalarının nəzdində qanunvericiliklə nəzərdə tutulmuş müddətdən gec olmayaraq 3 nəfərdən ibarət tərkibdə ekspert qruplarının yaradılması dairə seçki komissiyalarına həvalə edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

*Sədr* *Məzahir Pənahov*
*Katib* *Arifə Muxtarova*
*Katib* *Mikayıl Rəhimov*

*07.12.2019*

### QƏRAR № 15/63

### "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"na dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

"Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 917-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 yanvar tarixli Sərəncamının 2-ci hissəsinin icrası məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 23 iyun 2004-cü il tarixli 06/45 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"na aşağıdakı dəyişiklik edilsin:

1. 1.2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İmza vərəqələrini götürən namizəd və ya səlahiyyətli nümayəndə hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur".

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

*Sədr* *Məzahir Pənahov*
*Katib* *Arifə Muxtarova*
*Katib* *Mikayıl Rəhimov*

*07.12.2019*

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 7 dekabr 2019-cu il tarixli 1560 saylı Qərarı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı

*Azərbaycan Respublikası Prezidentinin 5 dekabr 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilmişdir*

| Sıra sayı | Əsas hərəkət və tədbirlər | İcraçılar | Keçirilmə müddətləri | |
|---|---|---|---|---|
| | | | Azərbaycan Respublikasının Seçki Məcəlləsi və digər hüquqi aktlara əsasən | Tövsiyə olunan müddətlər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Birmandatlı seçki dairələri üzrə namizədlərin irəli sürülməsi | Passiv seçki hüququ olan vətəndaşlar öz təşəbbüsləri ilə, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları | Seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı rəsmi dərc olunduqdan sonra<br>M a d d ə l ə r : 8.1, 146.1, 146.4 | |
| 2 | Namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərarın qəbul edilməsi | Dairə seçki komissiyaları | Sənədlərin seçki komissiyasına təqdim edilməsindən sonra 5 gün müddətində<br>M a d d ə l ə r : 53.6, 53.7, 54.9, 54.10 | |
| 3 | Namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələrinin verilməsi | Dairə seçki komissiyaları | Namizədliyin irəli sürülməsini təsdiq edən qərar qəbul edildiyi gündən başlayaraq<br>M a d d ə l ə r : 53.6, 54.9 | |
| 4 | Namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması | Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququna malik vətəndaşı, namizəd, siyasi partiya, siyasi partiyaların bloku | Dairə seçki komissiyasının deputatlığa namizədliyin irəli sürülməsini təsdiq edən qərarından sonra<br>M a d d ə l ə r : 56, 57, 147 | |
| 5 | Azərbaycan Respublikasının bütün seçki dairələrində müşahidə aparılması üçün ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında)*, beynəlxalq (xarici) müşahidəçilər *(qanunla müəyyənləşdirilmiş qaydada Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə)* | Seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək<br>M a d d ə l ə r: 1.1.19, 1.1.20, 40.4 - 40.6, 44 | 2020-ci il yanvarın 30-dək |
| 6 | Müəyyən seçki dairəsinin hüdudlarında müşahidə aparılması üçün ərizələrin müvafiq dairə seçki komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında)* | Seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək<br>M a d d ə l ə r : 1.1.19, 40.4, 40.5, 40.7 | 2020-ci il fevralın 4-dək |
| 7 | Səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün xüsusi icazə almaqdan ötrü Mərkəzi Seçki Komissiyasına müraciət edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında)* | Seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək<br>M a d d ə l ə r : 1.1.19, 40.4, 40.5, 40.13 | 2020-ci il yanvarın 30-dək |
| 8 | Müşahidəçilərin qeydə alınması və onlara Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası | Ərizənin komissiyaya verildiyi tarixdən başlayaraq 3 gün müddətində<br>M a d d ə l ə r : 25.2.20, 40.6, 44.4 | |
| | | Dairə seçki komissiyaları | Ərizənin Komissiyaya verildiyi tarixdən başlayaraq 2 gün müddətində<br>M a d d ə : 40.7 | |
| 9 | Seçki rəsmiləri üçün seçki hüququ üzrə maarifləndirmə tədbirlərinin keçirilməsi | Mərkəzi Seçki Komissiyası, Dairə seçki komissiyaları | Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.10-cu bəndi | Mütəmadi |
| 10 | Dairə və məntəqə seçki komissiyaları üzvlərinin təlimatlandırılması ilə əlaqədar treninqlərin təşkili və peşə hazırlığının artırılması ilə bağlı digər proqramların həyata keçirilməsinin təmin edilməsi | Mərkəzi Seçki Komissiyasının treninq qrupları | M a d d ə : 25.2.7 | Mütəmadi |

Ardı 5-ci səh.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 7 dekabr 2019-cu il tarixli 1560 saylı Qərarı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı

*Azərbaycan Respublikası Prezidentinin 5 dekabr 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilmişdir*

*Əvvəli 4-cü səh.*

| | | | | |
|---|---|---|---|---|
| 11 | Dövlət avtomatlaşdırılmış informasiya sisteminin işini dairə seçki komissiyalarında təmin edən kompüter mütəxəssisləri üçün treninqlərin keçirilməsi | Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | M a d d ə : 25.2.10 | Mütəmadi |
| 12 | Teleradio verilişləri və digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahı, seçki subyektlərinin hüquqi biliklərinin artırılmasının təmin olunması (çıxışlar, müsahibələr, “dəyirmi masalar”), əyani vəsaitlərin (videokliplər, plakatlar, bukletlər və s.) hazırlanması və nümayiş etdirilməsi | Mərkəzi Seçki Komissiyası | M a d d ə l ə r : 20, 25.2.7, 25.2.10 | Mütəmadi |
| 13 | Seçki fondunun formalaşdırılması üçün xüsusi seçki hesablarının açılması | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi | Namizədliyin irəli sürülməsi barədə tələb olunan sənədlər dairə seçki komissiyasına təqdim edildikdən sonra 5 gün müddətində, qeydiyyat üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalanadək<br>Maddələr: 91.1, 91.2, 157.1, 157.2 | |
| 14 | Birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizəd irəli sürmüş və namizədlər üçün vahid seçki fondu yaratmaq niyyətində olan siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesablarının açılması | Siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi | İrəli sürülmüş namizədlərin siyahısı Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən sonra 5 gün müddətində<br>M a d d ə : 157.2 | |
| 15 | Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi | Səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək<br>M a d d ə l ə r : 58.1, 94.3.1 | 2019-cu il dekabrın 21-dən 2020-ci il yanvarın 10-u saat 18:00-dək |
| 16 | İmza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınıb- alınmaması haqqında qərarın qəbul edilməsi | Dairə seçki komissiyaları | Sənədlər qəbul edildikdən sonra 7 gün müddətində<br>M a d d ə l ə r : 59, 60, 148.1-148.3 | |
| 17 | Namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin olunmuş vəkil edilmiş şəxslərin qeydə alınması və onlara lövhəciklərin verilməsi | Dairə seçki komissiyaları | Vəkil edilmiş şəxslərin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiya, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində<br>M a d d ə l ə r : 72.1, 72.2, 152 | |
| 18 | Birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyalar blokları tərəfindən hər bir seçki komissiyasının tərkibinə təyin edilən məşvərətçi səs hüquqlu üzvlərin təsdiq edilməsi və onlara Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası | Siyasi partiyalar, siyasi partiyalar bloklarının təqdimatının daxil olduğu gündən başlayaraq 3 gün müddətində<br>M a d d ə l ə r: 21, 148.6 | |
| 19 | Birmandatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd tərəfindən müvafiq dairə seçki komissiyasına və seçki dairəsinin ərazisində yerləşən hər bir məntəqə seçki komissiyasına təyin edilən məşvərətçi səs hüquqlu üzvlərin təsdiq edilməsi və onlara Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada lövhəciklərin verilməsi | Dairə seçki komissiyaları | Qeydə alınmış namizədin ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində<br>M a d d ə l ə r: 21, 148.6 | |
| 20 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin hazırlanma qaydasına və sayına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 45 gün qalanadək<br>M a d d ə : 101.1 | 2019-cu il dekabrın 26-dək |
| 21 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 45 gün qalanadək<br>M a d d ə : 101.1 | 2019-cu il dekabrın 26-dək |
| 22 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 25 gün qalanadək<br>M a d d ə l ə r: 101.1, 101.2 | 2020-ci il yanvarın 15-dək |
| 23 | Seçiciyə müvafiq dairə seçki komissiyası və ya məntəqə seçki komissiyası tərəfindən qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə 45-25 gün qalanadək<br>M a d d ə l ə r : 101.2 - 101.4 | 2019-cu il dekabrın 26-dan 2020-ci il yanvarın 15-dək |
| | | Məntəqə seçki komissiyaları | Səsvermə gününə 24-3 gün qalanadək<br>M a d d ə l ə r : 101.2 - 101.4 | 2020-ci il yanvarın 16-dan fevralın 6-dək |
| 24 | Qeydə alınmış namizədə qeydiyyat vəsiqəsinin verilməsi | Dairə seçki komissiyaları | Qeydə alındıqdan sonra M a d d ə : 60.7 | |
| 25 | Qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısının ictimailəşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək<br>M a d d ə l ə r : 26.2.5, 148.5 | 2020-ci il yanvarın 20-dək |
| 26 | Birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən KİV-də seçkiqabağı ödənişsiz təşviqat aparmaq məqsədilə yer ayrılacaq teleradio verilişləri təşkilatlarının və dövri nəşr redaksiyalarının siyahısının dərc edilməsi | Mərkəzi Seçki Komissiyası *(müvafiq icra hakimiyyəti orqanının təqdimatına əsasən)* | Seçkilərin təyin edilməsi haqqında sərəncam rəsmi dərc olunduqdan sonra 20 gündən gec olmayaraq<br>M a d d ə : 77.2 | 2019-cu il dekabrın 26-dək |
| 27 | Seçkiqabağı təşviqatın aparılması | Qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, səlahiyyətli nümayəndələr, vəkil edilmiş şəxslər | Səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.<br>M a d d ə l ə r : 72.3, 74.1.2, 74.1.4, 75.2 | 2020-ci il yanvarın 17-də başlanır, fevralın 8-i saat 8:00-da dayandırılır |
| 28 | Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsi | Dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | Səsvermə gününə azı 30 gün qalanadək<br>M a d d ə : 87.6 | 2020-ci il yanvarın 10-dək |
| 29 | Seçkiqabağı təşviqatın aparılması üçün müvafiq yerlərin ayrılması | Dairə seçki komissiyasının sifarişi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | M a d d ə : 86.3 | |
| 30 | Hərbi hissələrdə, istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində seçki məntəqələrinin bilavasitə seçkilərdən əvvəl yaradılması:<br>a)ümumi qaydada;<br>b) müstəsna hallarda | Dairə seçki komissiyaları (seçicilərin olduqları ərazilərdə müvafiq icra hakimiyyəti orqanı *(Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) və bələdiyyə qurumlarının başçıları ilə birlikdə)*<br>müvafiq dairə seçki komissiyasının qərarına uyğun olaraq hərbi hissələrin komandirləri | Səsvermə gününə azı 50 gün qalanadək<br>M a d d ə l ə r : 35.2, 35.5<br>Səsvermə gününə azı 5 gün qalanadək<br>M a d d ə : 35.5 | 2019-cu il dekabrın 21-dək<br>2020-ci il fevralın 4-dək |
| 31 | Nömrələri və hüdudları göstərilən seçki məntəqələrinin siyahısının (seçki məntəqəsi yaşayış məntəqəsi ərazisinin bir hissəsini əhatə etdikdə), yaşayış məntəqələrinin siyahısının (seçki məntəqəsi bir neçə yaşayış məntəqəsində yaradılmışsa), habelə məntəqə seçki komissiyalarının, səsvermə otaqlarının yerləri (ünvanları) və məntəqə seçki komissiyalarının telefon nömrələri haqqında məlumatların dərc edilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 45 gün qalanadək<br>M a d d ə : 35.7 | 2019-cu il dekabrın 26-dək |
| 32 | Müstəsna hallarda yaradılan seçki məntəqələri haqqında məlumatların dərc edilməsi | Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada | Seçki Məcəlləsinin 35.5-ci maddəsində göstərilən müddətdə seçki məntəqələrinin yaradılması günündən ən geci 2 gün keçənədək<br>M a d d ə : 35.7 | |
| 33 | Seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması məqsədilə seçici siyahılarının məlumat lövhələrində yerləşdirilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 35 gün qalanadək<br>M a d d ə : 48.1 | 2020-ci il yanvarın 5-dək |
| 34 | Hər bir seçki məntəqəsi üzrə təsdiq edilmiş seçici siyahılarının dəqiqləşdirilməsi:<br>a) yolu çətin və ya ucqar yerlərdə yaradılan seçki məntəqələri üzrə seçici siyahılarının dəqiqləşdirilməsi;<br>b) hərbi hissələrin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin (hərbi hissələrdə yerləşən hərbi qulluqçuların, hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında yaşayan hərbi qulluqçu ailələrinin, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların və digər seçicilərin) siyahılarının dəqiqləşdirilməsi | Dairə və məntəqə seçki komissiyaları<br>Məntəqə seçki komissiyaları *(müvafiq icra hakimiyyəti və bələdiyyə qurumlarının seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında)*<br>Məntəqə seçki komissiyaları *(hərbi hissə komandirlərinin, istintaq təcridxanaları və cəzaçəkmə müəssisəsi rəhbərlərinin seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında)* | Səsvermə gününə azı 25 gün qalanadək<br>M a d d ə : 46.1<br>Səsvermə gününə azı 25 gün qalanadək, müstəsna hallarda isə məntəqə seçki komissiyasının yaradılmasından 2 gün sonra<br>M a d d ə : 46.5<br>Səsvermə gününə azı 20 gün qalanadək<br>M a d d ə : 46.6 | 2020-ci il yanvarın 15-dək<br>2020-ci il yanvarın 20-dək |
| 35 | Seçici siyahılarının Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən qaydada təsdiq edildikdən sonra<br>M a d d ə : 46.1 | |
| 36 | Seçki komissiyalarının səsvermə protokollarının hazırlanması qaydasına, mətninə, formasına və sayına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən geci 45 gün qalanadək<br>M a d d ə l ə r : 100.1-100.6 | 2019-cu il dekabrın 26-dək |
| 37 | Səsvermə protokollarının hazırlanması | Mərkəzi Seçki Komissiyasının qərarı ilə müvafiq poliqrafiya müəssisəsi | Səsvermə gününə ən geci 30 gün qalanadək<br>M a d d ə : 100.6 | 2020-ci il yanvarın 10-dək |
| 38 | Səsvermə protokollarının Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək<br>M a d d ə : 100.8 | 2020-ci il yanvarın 20-dək |
| 39 | Səsvermə protokollarının dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə ən azı 4 gün qalanadək<br>M a d d ə : 100.8 | 2020-ci il fevralın 5-dək |
| 40 | Səsvermənin yeri və vaxtı barədə bildirişlərin formasının, sayının və hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 40 gün qalanadək “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları”nın 2.1-ci bəndi | 2019-cu il dekabrın 31-dək |
| 41 | Səsvermənin keçirilmə tarixi, vaxtı və yeri (seçki məntəqəsinin ünvanı) barədə bildirişlərin seçicilərə paylanması | Məntəqə seçki komissiyaları | Səsvermə gününə 7 gün qalanadək “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları”nın 3.1-ci bəndi | 2020-ci il fevralın 2-dək |
| 42 | Seçki bülletenlərinin mətninin, formasının, sayının və hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 35 gün qalanadək<br>M a d d ə l ə r : 99.1-99.4, 166 | 2020-ci il yanvarın 5-dək |
| 43 | Seçki bülletenlərinin hazırlanması | Mərkəzi Seçki Komissiyasının qərarı ilə müvafiq poliqrafiya müəssisəsi | Səsvermə gününə ən azı 10 gün qalanadək<br>M a d d ə : 99.4 | 2020-ci il yanvarın 30-dək |
| 44 | Seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 5 gün qalanadək<br>M a d d ə : 99.6 | 2020-ci il fevralın 4-dək |
| 45 | Seçki bülletenlərinin dairə seçki komissiyasından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 3 gün qalanadək<br>M a d d ə : 99.6 | 2020-ci il fevralın 6-dək |
| 46 | “Exit-poll” keçirmək niyyətində olan təşkilatların akkreditasiya üçün təqdim etdikləri sənədlərin qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | M a d d ə : 25.2.23<br>Səsvermə gününə ən azı 20 gün qalanadək<br>“Azərbaycan Respublikasında seçkilərdə “exit-poll” keçirən təşkilatların akkreditasiyası Qaydaları”nın 2.1-ci bəndi | 2020-ci il yanvarın 20-dək |
| 47 | “Exit-poll” keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | M a d d ə : 25.2.23<br>Səsvermə gününə ən azı 10 gün qalanadək<br>“Azərbaycan Respublikasında seçkilərdə “exit-poll” keçirən təşkilatların akkreditasiyası Qaydaları”nın 2.3-cü bəndi | 2020-ci il yanvarın 30-dək |
| 48 | İkinci ilkin maliyyə hesabatının təqdim edilməsi | Qeydə alınmış namizəd və ya onun səlahiyyətli nümayəndəsi, namizədi qeydə alınmış siyasi partiyanın, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri | Səsvermə gününə ən tezi 20, ən geci 10 gün qalanadək<br>M a d d ə : 94.3.2 | 2020-ci il yanvarın 20-dən 30-dək |
| 49 | Seçki günü səsvermənin yeri və vaxtı barədə KİV-lər və məlumat lövhələri vasitəsilə seçicilərin xəbərdar edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 25 gün qalanadək<br>M a d d ə : 104.1 | 2020-ci il yanvarın 15-dək |
| 50 | Səsvermənin keçirilməsi:<br>a) həmin gün seçki məntəqəsində səsverməyə hazırlıq işlərinin başlanması;<br>b) seçki məntəqələrinin açıq elan edilməsi və seçki qutularının kilidlənməsi;<br>**c) səsvermə üçün seçki məntəqələrinin açıq elan edilməsi;**<br>ç) səs vermək üçün seçicilərin seçki məntəqəsinə daxil olmasının başa çatmasının elan edilməsi | Məntəqə seçki komissiyaları<br>a) məntəqə seçki komissiyaları<br>b), c), ç) məntəqə seçki komissiyalarının sədrləri | M a d d ə l ə r : 104, 105, 167 | 2020-ci il fevralın 9-u bir qayda olaraq<br>a) saat 07:30<br>b) saat 07:50<br>**c) saat 08:00**<br>ç) saat 19:00 |
| 51 | Səsvermənin gedişi, seçicilərin səsvermədə iştirakı barədə ilkin məlumatların verilməsi (gün ərzində 5 dəfə) | Məntəqə və dairə seçki komissiyaları, Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | M a d d ə l ə r : 110.5, 110.6 | Seçki günü:<br>saat 10:00<br>saat 12:00<br>saat 15:00<br>saat 17:00<br>saat 19:00 |
| 52 | Səsvermənin nəticələri haqqında məntəqə və dairə seçki komissiyalarının yekun protokollarındakı məlumatların Mərkəzi Seçki Komissiyası Katibliyi İnformasiya Mərkəzinin internet saytında ilkin məlumat kimi yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | M a d d ə l ə r : 110.5, 110.6 | Seçki günü və ondan sonra |
| 53 | Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolunun 1-ci nüsxəsinin ona əlavə edilən sənədlərlə birlikdə dairə seçki komissiyasına göndərilməsi | Məntəqə seçki komissiyaları | Seçicilərin səslərinin hesablanmasına yekun vurulandan sonra dərhal, lakin 24 saatdan gec olmayaraq<br>M a d d ə l ə r : 106.7,168 | |
| 54 | Məntəqə seçki komissiyasının yekun protokolunun 3-cü nüsxəsinin məlumat lövhəsində asılaraq nümayiş etdirilməsi | Məntəqə seçki komissiyaları | Protokol tərtib edildikdən dərhal sonra lövhədən asılaraq 5 gün müddətində<br>M a d d ə : 106.11 | |
| 55 | Seçki dairəsi üzrə seçkilərin nəticələrinin müəyyən olunması, dairə seçki komissiyası protokolunun tərtib edilməsi və protokolun 1-ci nüsxəsinin ona əlavə edilmiş sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim olunması | Dairə seçki komissiyaları | Səsvermə günündən ən geci 2 gün keçənədək<br>M a d d ə l ə r : 107.1-107.4, 169 | 2020-ci il fevralın 12-dək |
| 56 | Dairə seçki komissiyası protokolunun 3-cü nüsxəsinin və müvafiq məntəqə seçki komissiyaları protokollarının surətlərinin məlumat lövhəsində asılaraq nümayiş etdirilməsi | Dairə seçki komissiyası | Protokol tərtib edildikdən dərhal sonra lövhədən asılaraq 10 gün müddətində<br>M a d d ə : 107.7 | |
| 57 | Seçkilərin ilkin nəticələrinin Mərkəzi Seçki Komissiyası tərəfindən seçki dairələri üzrə ümumiləşdirilmiş cədvəl şəklində dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçki dairələri üzrə səsvermənin nəticələrinə dair protokollar Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən dərhal sonra<br>M a d d ə 109.1 | |
| 58 | Dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə məntəqə seçki komissiyalarının maliyyə hesabatının dairə seçki komissiyalarına təqdim edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə günündən sonra 5 gün müddətində<br>M a d d ə : 96.6 | 2020-ci il fevralın 15-dək |
| 59 | Dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə dairə seçki komissiyalarının maliyyə hesabatının Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Dairə seçki komissiyaları | Səsvermə günündən sonra 10 gün müddətində<br>M a d d ə : 96.7 | 2020-ci il fevralın 20-dək |
| 60 | Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələrinin yoxlanılması və yekun vurulması | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən ən geci 20 gün keçənədək<br>M a d d ə : 171.2 | 2020-ci il fevralın 29-dək |
| 61 | Seçkilərin yekunlarının və nəticələrinin təsdiq olunması üçün müvafiq sənədlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunması | Mərkəzi Seçki Komissiyası | Mərkəzi Seçki Komissiyasının seçkilərin ümumi yekunları haqqında protokol tərtib edildikdən sonra 24 saat müddətində<br>M a d d ə : 171.2 | |
| 62 | Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin yekunlarının və nəticələrinin yoxlanılaraq təsdiq edilməsi | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | Konstitusiya Məhkəməsi müvafiq sənədləri aldıqdan sonra 10 gün müddətində (yoxlama prosesi tələb etdikdə, həmin müddət artırıla bilər)<br>M a d d ə l ə r : 171.1, 171.3, 171.4 | |
| 63 | Yekun maliyyə hesabatının təqdim edilməsi (seçki fonduna vəsaitlərin daxil olmasını və xərclənməsini təsdiq edən ilkin maliyyə sənədləri də qoşulmaqla) | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri | Seçkilərin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra<br>M a d d ə : 94.3.3 | |
| 64 | Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş şəxsə deputat vəsiqəsinin verilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin ümumi yekunları rəsmi dərc edildikdən sonra<br>M a d d ə : 173.3 | |
| 65 | Dairə seçki komissiyalarının protokollarında olan məlumatların tam şəkildə dərc edilməsi (həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər) | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən sonra 45 gün müddətində<br>M a d d ə l ə r : 109.2, 174 | 2020-ci il martın 26-dək |
| 66 | Büdcə vəsaitlərinin istifadəsi, namizədlərin, qeydə alınmış namizədlərin seçki fondları vəsaitinin və siyasi partiyaların, siyasi partiyalar bloklarının vəsaitinin xərclənməsi barədə məlumatların Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə və kütləvi informasiya vasitələrinə təqdim edilməsi<br>Göstərilən maliyyə hesabatının və məlumatların Mərkəzi Seçki Komissiyasının rəsmi mətbuat orqanında dərc edilməsi | Mərkəzi Seçki Komissiyası<br>Mərkəzi Seçki Komissiyası | Seçkilərin ümumi nəticələrinin rəsmi dərci günündən sonra 3 ay müddətində<br>M a d d ə : 96.9<br>Hesabatın və məlumatların Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi gündən başlayaraq 1 ay müddətində<br>M a d d ə : 96.9 | |
| 67 | Məntəqə və dairə seçki komissiyalarının protokollarında olan məlumatların Mərkəzi Seçki Komissiyasının rəsmi nəşrində tam şəkildə dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçki günündən sonra 6 ay müddətində<br>M a d d ə : 109.5 | 2020-cı il avqustun 10-dək |

# Oxucu məktubları



Gənclərin sevimli ünvanı

Hacıqabul rayonunda Heydər Əliyev Muzeyi 2008-ci il may ayının 10-dan fəaliyyətə başlamışdır. Prezident İlham Əliyev 2019-cu il sentyabrın 3-də ilk dəfə muzeydə olmuş, "Xatirə kitabı"na ürək sözlərini yazmışdır. Həmin dövrdə muzeyin ümumi sahəsi 258,64 kvadratmetr, eksponatların sayı 137 idi.



## Ulu Öndərin irsini öyrənən mərkəz



Mədəniyyət nazirinin 24 yanvar 2012-ci il tarixli əmrinə əsasən fevralın 1-dən Hacıqabul rayon Heydər Əliyev Muzeyi Heydər Əliyev Mərkəzi kimi fəaliyyət göstərməyə başlamışdır. 2012-ci ilin fevralında aparılan təmir-tikinti işlərindən sonra mərkəzin binası genişləndirilmişdir. Dövlət başçısı 2013-cü il aprelin 15-də Hacıqabula yenidən səfəri zamanı Heydər Əliyev Mərkəzinin təmir-tikinti işlərindən sonrakı vəziyyəti ilə maraqlanmışdır. Burada əlavə olaraq ekspozisiya zalı, rəsm studiyaları, elektron kitabxana, fotostudiya, xarici dil öyrənmə mərkəzi, konfrans və kino zalları yaradılmışdır.

Heydər Əliyev Mərkəzi Ulu Öndərin irsi, onun həyat və fəaliyyəti ilə bağlı eksponat, kino, video və fotosənəd nümunələrini toplayan, qoruyan, nümayişini və öyrənilməsini təşkil edən, yetişməkdə olan nəslin Ümummilli Liderin ideyalarına, milli-vətənpərvərlik ruhunda tərbiyəsinə, onların mənəvi və intellektual inkişafına kompleks yanaşmanı təmin edən mədəniyyət, təhsil və elmi-tədqiqat müəssisəsidir.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin sturukturu əsasən iki hissədən ibarətdir. Birinci hissədəki ekspozisiya bölməsi ümumilikdə 334 fond vahidindən ibarətdir. İkinci hissə tədris, təlim-tərbiyə və kütləvi tədbirlər bölməsi adlanır.

Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı tədbirlər, mühazirələr, dərslər, ekskursiyalar təşkil olunur. Həmçinin icra hakimiyyətinin təşkilatçılığı ilə rayon tədbirləri, nazirlərin qəbulu, rayon Təhsil şöbəsi ilə birgə tarix aylıqları keçirilir. Mərkəzdə rayon Gənclər və İdman İdarəsi, Mərkəzi kitabxana və kitabxana filialları, Həmkarlar Təşkilatı ilə birgə filmlərin nümayişi, "Açıq qapı" günləri, Kino günləri, səyyar sərgilər, məktəblərdə, bağçalarda uşaqlarla söhbətlər, oyunlar, gənc istedadlıların üzə çıxarılması ilə bağlı rəsm, şeir müsabiqələri, intellektual oyunlar və digər tədbirlər düzənlənir. 2014-cü ilin aprelindən etibarən burada nigah mərasimləri keçirilir. Bugünədək 194 nigah qeydə alınıb.

Mərkəzdə rayonun tam orta məktəblərinin 11-ci sinif şagirdlərinə "Heydər Əliyev dərsləri" keçirilir. 1319 şagird bu dərslərdə iştirak edib.

2017-ci il iyunun 7-də mərkəzdə "Heydər Əliyev Akademiyası" açılmışdır. Bundan başqa, xalça-toxuculuq, rəsm və "Ailədə ilkin tibbi yardım" kursu fəaliyyət göstərir. Xalq yaradıcılıq studiyasında gənclər qədim və müasir xalçaçılıq, toxuma və toxuculuq sənətini təcrübəli xalça ustalarından öyrənirlər.

Mərkəzin rəsm studiyasında rəssamlıq sənətinin sirləri öyrədilir. Artıq 32 nəfər rəsm kursunu bitirib və vəsiqə alıb. Kursu keçənlər mütəmadi olaraq rayon, respublika və respublikadan kənarda olan rəsm müsabiqələrində iştirak edir, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılırlar.

Heydər Əliyev Mərkəzində dərnək üzvlərinin, müəllimlərin rəsm əsərlərindən ibarət qalereya, sərgilər nümayiş olunur. Həmin eksponatlar Mədəniyyət günləri və müxtəlif tədbirlərdə mərkəzdən kənarda da sərgilənir. Cümhuriyyətin 100 illiyi münasibətilə keçirilən "Bölgələrdən bölgələrə" tədbirində Hacıqabul rayon Heydər Əliyev Mərkəzinin əl işlərindən ibarət sərgisi Naftalan, Sumqayıt və Tovuzda nümayiş etdirilib.

Kino zalında Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmlərə baxış keçirilir.

2019-cu ilin yanvarından noyabrın əvvəlinədək mərkəzə 10557 tamaşaçı gəlib, 511 qrup halında ekskursiya təşkil edilib.

Heydər Əliyev Mərkəzində və rayonda keçirilən bütün tədbirlər haqqında "Hacıqabul", "Mədəni-irs" qəzetlərində və saytlarda müntəzəm olaraq məlumatlar verilir.

Heydər Əliyev Mərkəzinin tədqiqat qrupu da fəaliyyət göstərir. Həmin qrup bugünədək bir çox eksponatlar toplamağa müvəffəq olmuşdur.

***Aytən ZÜLFƏLİYEVA,***
***Hacıqabul Rayon Heydər Əliyev Mərkəzinin direktoru***

Quruculuq

## Hamı razılıq edir

Boyat və Ballıcalı kəndləri Salyan-Neftçala magistral şose yolundan təxminən 7 kilometr kənar məsafədə yerləşir. Hər iki kəndin əhalisi qədim zamanlardan əkinçilik və heyvandarlıqla məşğuldur. Bu iki kənd Boyat inzibati-ərazi nümayəndəliyinin tərkibindədir. Boyat kəndində 269, Ballıcalı kəndində 113 ailə yaşayır. Əhalisi birlikdə 3 min nəfərdən çoxdur.

Yol sarıdan bu yaxınlaradək çətinlik çəkirdik. Ötən əsrin 80-ci illərindən bu yol, demək olar ki, təmir olunmurdu. Baxımsızlqdan yolda çala-çuxurlar yaranmışdı. Əlaqədar təşkilatlara dəfələrlə müraciət edilsə də, nəticəsi olmurdu. Axırda kənd camaatı ölkə rəhbəri cənab İlham Əliyevə müraciət etdi. Sağ olsun Prezident! Tez bir zamanda yolun təmiri ilə bağlı göstəriş verdi. Aprel ayından yolun təmirinə başlanıldı və sentyabr ayında işlər başa çatdırıldı. İndi hər iki kəndin camaatı bu yolla rayon mərkəzinə, Salyana, Bakıya və digər yerlərə rahat gedib-gəlir, yetişdirdikləri kənd təsərrüfatı məhsullarını istədikləri bazarlara, tədarük təşkilatlarına apara bilirlər.

***Almirzə SƏMƏDOV,***
***Neftçala rayonu Boyat kəndi***

Nəsillərə nümunə





## Mərd namərdə təslim olmaz

Torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən igidlər dövlətimiz və xalqımız tərəfindən daim əziz tutulur, xatirələrini əbədiləşdirmək üçün komplekslər yaradılır. Belə komplekslərdən biri bu yaxınlarda bizim kənddə açılmışdır.

Kompleksin açılış mərasimi yaddaqalan çıxışlarla zəngin oldu. Rayon icra hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov, kənd sakinlərindən İsa Cavadoğlu, Abbas Abbasov, Elşad Kərimov dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdikləri qayğıdan danışıb bu istiqamətdə rayonda görülən işlərdən söz açdılar.

Mərasimdə belə bir fakt da qeyd olundu ki, kəndin sakinləri qəhrəmanları ilə fəxr edir. İkinci Dünya müharibəsində faşizmə qarşı aparılan döyüşlərdə 269 nəfər şəhid verən Əyyublu kəndinin vətənpərvər oğulları Qarabağ müharibəsində də igidliklə döyüşmüşlər. Onların 9-u - Eyvaz Bayramov, Rövşən Alıyev, Ədalət Qasımov, Sahib İsgəndərov, Bəxtiyar Kərimov, Azər Məmmədov, Hikmət Məmmədov, Habil Həmzəyev, Qabil Sadıqov şəhid olmuşlar.

Onlardan biri - Eyvaz Bayramov haqqında ayrıca söhbət açmaq istəyirəm. Eyvaz 1971-ci ildə anadan olub. 1988-ci ildə Əyyublu kənd orta məktəbini bitirdikdən sonra ordu sıralarına çağırılıb. 1989-1991-ci illərdə Rusiyanın Çelyabinsk vilayətində həqiqi hərbi xidmət keçib. 1992-ci ildə vətənə qayıdıb, avqust ayından Azərbaycan Ordusunda xidmət etməyi özünə borc bilib. Sentyabrın 10-da mənfur ermənilərin Çıldıran kəndinə hücumunun qarşısını alarkən 13 nəfər döyüşçü ilə birlikdə mühasirəyə düşsə də, onlar mərdliklə döyüşüb, heç biri namərdlərə təslim olmamışdır. Eyvaz bundan sonra da bir neçə döyüşdə iştirak edib xidmət etdiyi rota ilə birlikdə Laçına yola düşür və orada "Sarıbaba" dağı adlanan ərazi uğrunda gedən döyüşlərdə vuruşur, Şuşanın Cəmillər kəndinə hücumların qarşısının alınmasında iştirak edir. Az sonra Şəmkirdəki Seyfəli kəndinə göndərilir, orada təlim keçib leytenant rütbəsi ilə Ağdərə rayonuna yola düşür. Həmin vaxtlar ermənilər Ağdərənin Çıldıran və Dovşanlı kəndlərinə genişmiqyaslı hücüma keçmişdilər. Eyvaz Bayramov bu döyüşlərdə onlarca erməni əsgərini məhv edir. Lakin 1993-cü il yanvarın 15-də döyüşdə ağır yaralanır və bir gün sonra dünyasını dəyişir. Hazırda vaxtilə təhsil aldığı məktəb onun adını daşıyır.

***İlqar KƏRİMOV,***
***Tovuz rayonu Əyyublu kəndinin sakini***

Minnətdarlıq

## 48 ailənin sevinci

Bu günlərdə dövlət başçısının sərəncamı ilə ayrılan vəsait hesabına Astara şəhərində tikilən 48 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Yeni mənzillərə istismar müddəti başa çatmış binalarda yaşayan və daha çox ehtiyacı olan ailələr köçürülmüşdür.



Bu münasibətlə keçirilən mərasimdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev demişdir ki, vətəndaşlarımız köhnə, şəraitsiz evlərdən yaraşıqlı, hər cür kommunal şərati olan yeni mənzillərə köçür, arzularına qovuşurlar. Prezident İlham Əliyev sadə vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması üçün daim qayğı göstərir, vəsait ayırır. Bu gün siz də bunun şahidi oldunuz. Elə bu binanın qonşuluğunda Prezidentin başqa bir sərəncamı ilə ayrılan vəsait hesabına təbii fəlakət nəticəsində evləri qəzalı vəziyyətə düşmüş rayon sakinləri üçün 36 mənzilli evin inşasına başlanmışdır.

Yeni mənzilə köçənlər - Yazgül Əliyeva, Zakir Ramazanov, Hafizə Məmmədova, Sevil Lətifova, Qızlar Əliyeva sakinlər adından çıxış edərək onlara hər cür şəraiti və rahatlığı olan mənzillər hədiyyə etdiyinə görə ölkə Prezidenti İlham Əliyevə sonsuz məhəbbətlərini bildirərək minnətdarlıq etmişlər.

***Səfail MƏMMƏDOV,***
***Astara şəhər sakini***

Əməklə ucalanlar

## İşləmək istəyənə hər yerdə iş var

Ermənistan silahlı qüvvələri Laçını işğal edəndə biz qohumluq əlaqələrimiz olan Tərtər rayonunun İsmayılbəyli kəndinə pənah gətirdik. Qohumlarımızla bərabər kənd camaatı da bizə hörmətlə yanaşıb qayğı və diqqət göstərdi.

Biz də qohum-əqrəbaya yük olmamaq üçün qollarımızı çırmayıb əkin-biçin işlərinə başladıq, mal-qara saxladıq. Çox keçmədi ki, öz qazancımızla ev tikdik, ailəmizin isti ocağı, rahat ev-eşiyi oldu.

Digər tərəfdən, dövlətin qaçqın və məcburi köçkünlərə davamlı qayğısı da uğurlu sabaha, xoş günlərə inamımızı artırdı. Haçan rayon rəhbərliyinə müraciət etdikə, bizə həssaslıqla yanaşıldı və göstərilən qayğı fəaliyyətimizi genişləndirməyə təkan verdi.

İllər öncə cəmi bir hektarda başladığımız əkin-biçin sahəsi indi 100 hektara çatıb. Artıq kənd təsərrüfatı məhsullarından əldə etdiyimiz qazanc bizimlə birgə çalışan yeddi ailənin dolanışığını da təmin edir.

Bizim təsərrüfat əsasən toxumçuluqla məşğuldur. Bu il 50 hektar sahədə taxıl əkib-becərdik. Orta hesabla hər hektarın məhsuldarlığını 52 sentnerə çatdırıb 150 ton yüksək keyfiyyətli toxum istehsal etmişik. Toxum satdığımız Tərtər, Ağcabədi, Beyləqan, Cəlilabad və Göygöl rayonlarının fermerləri razılıqlarını bildirirlər.

Onu da deyim ki, bu il taxıl zəmilərinin məhsulunu biçib götürəndən sonra 22 hektarda qarğıdalı, 3 hektarda günəbaxan, 1 hektarda isə kartof əkib eyni sahədən iki dəfə məhsul götürdük. Gələn il təkrar əkin sahələrini genişləndirməyi nəzərdə tuturuq.

Ənənəvi kənd təsərrüfatı sahəsi olan baramaçılığa da böyük önəm veririk. 3,5 hektar sahədə Çin Xalq Respublikasından gətirilmiş 40 min çəkil əkmiş, 200 kvadratmetrlik kümxana tikmişik. Bundan başqa, cari ildə 4 hektar sahədə pambıq əkib-becərmiş, hər hektardan 42 sentner məhsul götürmüşük. Biz ətlik üçün 100 baş mal-qara, xeyli toyuq-cücə də saxlayırıq. Qulluq etdiyimiz 10 arı ailəsi ailəmizin və dost-tanışın bala olan ehtiyacını artıqlaması ilə ödəyir. Dediyim odur ki, könlündə işləmək həvəsi olan ehtiyac içində yaşamaz, özünü, ailəsini dolandırmaq üçün başqasına bel bağlamaz.

***Mirzə CÜMŞÜDOV,***
***Tərtər rayonunun İsmayılbəyli kəndində məskunlaşmış laçınlı məcburi köçkün***

Yenilik



## Qayğıya ehtiyacı olan uşaqlara töhfə

Ölkəmizdə qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası üçün dövlət tərəfindən təlim-tərbiyə mərkəzləri açılır və digər şərait yaradılır. Nəticədə onlar da cəmiyyətin fəal üzvlərinə çevrilirlər. Bu yaxınlarda belə mərkəzlərdən biri - "Günərzi qayğı mərkəzi" Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi tərəfindən Daşkəsən rayonunda açılmışdır.

İlkin olaraq burada məktəb yaşlı uşaqlardan ibarət iki qrup formalaşdırılmışdır. Mərkəzə tək valideynli, hər iki valideynini itirmiş, əlilliyi, xəstəliyi olan 30 uşaq cəlb edilmişdir. Uşaqlar gün ərzində üç dəfə yeməklə təmin olunurlar.

Mərkəzdə uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun müxtəlif təlimlər həyata keçirilir. Uşaqlar da sosial işçilərin, pedaqoqların, tərbiyəçilərin, psixoloqların keçirdikləri testlərdə, məsləhət saatlarında, musiqi dərslərində, idman yarışlarında və əyləncəli oyunlarda həvəslə iştirak edirlər.

***Malik ŞÜKÜROV,***
***DSMF-nin Daşkəsən rayon şöbəsinin müdiri***

Abadlıq

## Birinin əvəzinə ikisini tikdilər

Cağacuq çayı 700 nəfər əhalinin yaşadığı Xanagah kəndinin ortasından keçir. Bu yaxınlaradək çayın üzərində bir körpü vardı, o da sınıq-salxaq. İş o yerə çatmışdı ki, təcili tibbi yardıma zəng edəndə həkimlər maşınla körpüyə kimi gələr, sonra xəstənin mənzilinə piyada gedərdilər. Məktəblilərin də bir qismi yağışlı günlərdə çayı keçə bilmədiklərinə görə dərsə getməmək məcburiyyətində qalırdı.

Bir neçə ay bundan əvvəl Prezidentin tapşırığı ilə Qubada vətəndaşları qəbul edən rəhbər işçiləri məsələdən agah etdik. Sağ olsunlar, xahişimizi yerə salmadılar. Çox keçmədən dağılmış körpünü söküb yerində yenisini saldılar. Bundan sonra daha bir körpünün tikilməsi üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırıldı. Əraziyə baxış keçirildi. Sakinlərin istədikləri yerdə daha bir körpü tikildi. Kənd sakinləri bu körpünün tikintisində də iştirak etdilər, inşaatçılara çay süfrəsi açdılar.

Körpünün açılışına qonşu kəndlərdən də gəlmişdilər. Axı indi onlar da Xanagahda yaşayan qohum-əqrəbalarına baş çəkmək üçün bu körpülərdən istifadə edirlər.

***Xanəli ABSƏLİMOV,***
***Quba, Xanagah kəndi***




Giley

## Kəndimizdə məktəb yoxdur

Kəndimiz Bərdə şəhərinin yaxınlığında yerləşir. Evlərə təbii qaz, elektrik enerjisi fasiləsiz verilir, yollara asfalt örtük çəkilib. Bütün bunlar çox yaxşıdır və camaat bunu dövlətin qayğısı kimi çox yüksək qiymətləndirir.

Lakin neçə illərdir sakinləri düşündürən, narahat edən bir məsələ hələ də öz həllini tapmayıb. Kəndimizdə məktəb yoxdur! Kənd uşaqları oxumaq üçün kilometrlərlə yol qət edib şəhər məktəblərinə üz tuturlar. Yolları da dəmiryol xəttinin üstündən keçir. Dəmir yolunun üstündə isə keçid yoxdur. Kəndin sakinləri dəmir yolundan keçərkən dəfələrlə bədbəxt hadisələr baş verib, hətta həyatını itirənlər də olub.

Hörmətli redaksiya!

Məktəb tikintisi ilə bağlı rayon rəhbərliyinə, respublikanın əlaqədar dövlət qurumlarına dəfələrlə müraciətlər edilsə də, nəticəsi yoxdur! Ümidimiz sizə qalıb.

***Fərid HÜSEYNOV,***
***Bərdə rayonu Alaçadırlı kəndi***

Dünya olduğu kimi

# İlk qiblə

**Bura müsəlman aləminin üçüncü müqəddəs məkanıdır... Bura müsəlmanlar üçün ilk qiblənin yerləşdiyi və Məhəmməd Peyğəmbərin meraca getdiyi yerdir... Bura Qüdsdə yerləşən Məscid əl-Əqsadır.**



150 hektar ərazidə yerləşən əl-Əqsa məscid kompleksinin içərisində iki məscid yerləşir. Bunlardan biri qızıl günbəzli "Qübbə-Səxrə"dir. Məhəmməd Peyğəmbər merac gecəsi məhz burada namaz qılıb. İslam aləmində ilk qübbəli məsciddir. Qübbəsinin tikintisində qızıldan xeyli istifadə edilib. Qızıl günbəzli məscid adlanması da məhz burdan irəli gəlir. Digəri isə qara günbəzli "Məscid əl-Əqsa"dır.

Məscidin adı Məhəmməd Peyğəmbərin sağlığında Məkkəyə ən uzaq yerdə olması səbəbindən Məscid əl-Əqsa ("Ən uzaqdakı məscid") adlandırılıb. Lakin bu müqəddəs məkanın tarixi islamın yaranmasından daha qədimə gedir.

Rəvayətə görə, Beyt əl-Məqdis və ya Beytül Müqəddəs adlanan məbəd "Quran"da adı keçən Davud Peyğəmbərin zamanında inşa olunub. Məbədin divarları bir adam boyu hündürlükdə olanda Həzrət Davud vəfat edib. Tikintini və 12 məhəllədən ibarət olan Qüds şəhərini bütövlükdə inşa etdirib başa çatdırmaq Davudun oğlu Həzrət Süleymana nəsib olub. Məscid əl-Əqsanın tikintisində qızıl, gümüş, yaqut və başqa zinət əşyalarından istifadə olunub. Tikinti 7 ilə başa çatıb.

Həzrət Süleyman nəsildən-nəslə keçən və içərisində Həzrət Musadan yadigar qalan qədim Tövrat nüsxəsinin olduğu Əhd sandığını Məscid əl-Əqsaya qoyub. Lakin sonrakı illərdə Qüdsü işğal edən Assuriya hökmdarı Buhtunnasr məscidi qarət edərək onu Babilə aparıb. Sonradan Məscid əl-Əqsa bərpa olunsa da, miladın 70-ci ilində Qüdsü işğal edən Roma imperiyasının orduları şəhəri və Məscid əl-Əqsanı yandırıb dağıdıb. Bu təqvim, eyni zamanda, Məscid əl-Əqsanın yəhudiliklə əlaqəsinin sona çatdığı dövr hesab olunur.

Miladın 123-cü ilində Bizans imperiyası Məscid əl-Əqsanı təmir edib. İslamın ilk illərində Məhəmməd Peyğəmbərin meracı baş verir. Peyğəmbər Məscid əl-Həramdan (Məkkədəki Kəbə məscidi) Məscid əl-Əqsaya gəlib, orada namaz qılıb. Bu dövrdə Məscid əl-Əqsa həm də müsəlmanların qibləsi, yəni namazda üzlərini çevirib ibadət etdikləri istiqamət idi. Yalnız Mədinəyə hicrətdən 16 ay sonra Allahdan gələn vəhylə müsəlmanların qibləsinin Məkkə (Kəbə) olduğu bəyan edilir. Ancaq əl-Əqsa müsəlmanların ilk qibləsi olaraq müqəddəs məkan kimi tanınır.

638-ci ildə II xəlifə Ömər Suriyaya səfəri zamanı Məscid əl-Əqsanı ziyarət edib. Məhz xəlifənin tapşırığı ilə məscid yenidən bərpa olunub və ibadətə açılıb. Eyni zamanda yəhudilərin də burada ibadət etməsinə icazə verilib.

1099-cu ildə Qüdsü işğal edən Avropa səlibçi ordusu Məscid əl-Əqsanı qarət edib yandırır. Səlibçilər oradakı müsəlmanların təxminən 70 minini qətlə yetiriblər. Qaya günbəzini kiçik kilsəyə, aşağı otaqları at tövləsinə, məscidin özünü isə saraya çeviriblər. Kütləvi qətliamda sağ qalan müsəlmanları daha sonra məscidin mərkəzində böyük xaçlar üzərində çarmıxa çəkiblər. Həmin yerdə xaçın təməlini bu gün də görmək mümkündür. Ancaq xristianların Qüdsdə hakimiyyəti 88 il davam edir. 1187-ci ildə Səlahəddin Əyyubinin rəhbərlik etdiyi müsəlman ordusu Qüdsü azad edir. Əl-Əqsa kilsə heykəllərindən təmizlənərək yenidən məscid kimi fəaliyyət göstərməyə başlayır, kilsə zənginin səsini azan səsi əvəzləyir.

Məscid əl-Əqsa bir ibadət ocağı, müqəddəs məkan olmaqla yanaşı, islam təhsil mərkəzi rolunu oynayıb. Əməvilər, Abbasilər, eləcə də Əyyubilər və Məmlüklər zamanında məscid həm ibadət, həm də dini təhsil mərkəzi kimi fəaliyyətini davam etdirib.

1517-ci ildə Yaxın Şərqin Osmanlı İmperiyasının ərazilərinə qatılması ilə Məscid əl-Əqsanın uzun bir sabitlik dönəmi başlayıb. Osmanlılar islam dinində böyük yeri olan Məscid əl-Əqsaya xüsusi diqqət göstərib, daim təmir və bərpa ediblər.

Qeyd edək ki, Qüds yəhudi və müsəlmanlarla yanaşı, xristianlar üçün də müqəddəs məkan anlamındadır. Belə ki, İsa Peyğəmbərin dünyaya göz açması, yaşaması, nəhayət, çarmıxa çəkilməsi bu torpaqlarda baş verib. Qüds xristianlığın başlanğıc yeri kimi xristianlar üçün müqəddəs dəyərə malikdir.

1969-cu ildə avstraliyalı bir fanatik protestant Məscid əl-Əqsanı yandırıb. Ancaq bəzi iddialara görə, məscidin yandırılmasını İsrail xüsusi xidmət orqanları təşkil edib. Bu hadisə müsəlman dünyasında böyük etirazlara səbəb olub. Sonrakı illərdə - 1980-ci və 1982-ci illərdə iki dəfə məscidi dağıtmağa cəhd ediblər. Məscid Fələstin davasının simvoluna çevrilib.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



## Bilirsinizmi...

- Tarakanlar başsız yaşaya bilirlər. Başı qopmuş tarakanın ölmə səbəbi isə yemək yeyə bilməməsidir;
- Şagirdlərin 35 faizi müəllimləri sual verməsin deyə özünü dərsə qulaq asırmış kimi göstərir;
- Sabunun çirki təmizləyən hissəsi köpükdür. Yəni sabun köpüklənməsə heç bir işə yaramır;
- Bayquş başını 360 dərəcə çevirə bilir;
- Bir ağac 4 nəfərlik ailəyə bəs edəcək qədər oksigen istehsal edir;
- İnsanın dilində əks olunan izlər barmaq izi qədər təkrarolunmazdır;
- Günəş bir dəqiqə ərzində Yerin bir il ərzində sərf etdiyi bütün enerjidən çox enerji istehsal edir;
- Dünyada ən güclü canlı kərgədan böcəyidir. O, öz çəkisindən 850 dəfə ağır yük götürə bilir.



## Pikassonun, Van Qoqun yarımçıq əsərlərini süni intellekt tamamlayıb

**Müasir texnologiyalar rəssamların əsərlərinin üslubunu təhlil etdikdən sonra onları bərpa etməyə və yarımçıq əsərləri tamamlamağa qadirdir.**

Yeni texnologiyalar sayəsində Pikassonun "Qoca kor gitaraçı" əsəri əsasında onun "İtmiş qadın" əsəri tamamlanıb. Belə ki, Pikassonun mavi dövr üslubu tətbiq edilməklə orijinal əsər bərpa olunub. Süni intellekt Pikassonun rəsm çəkmək üslubunu təhlil edərək onu yarımçıq əsərin tamamlanmasında tətbiq edib.

Eyni zamanda, süni intellektlə Van Qoqun zamanla çox köhnəlmiş əsəri bərpa olunub və Şubertin tamamlanmamış 8 və 10-cu simfoniyaları başa çatdırılıb.

Artıq müasir texnologiyalar rəssamların fırçalarının minlərlə hərəkət tərzini təhlil etməyə və onların surətini rəssamın üslubuna transfer etməyə qadirdir.

Təbiətin dostları

## Gözəllik, sədaqət, murad rəmzi

Dünyanın ən gözəl heyvanı sayılan atların qədim əcdadı hesab edilən Eohippus 35 sm hündürlüyündə və 5 kq ağırlığında olub. Müasir atdan fərqli olaraq, Eohippusun hər ayaqda qabaqda 4, arxada 3 barmağı var imiş. Milyon illər davam edən təkamül nəticəsində Eohippus dəyişmiş, 100-120 sm boylu İliohippus adlanan tək dırnaqlı forma meydana gəlmişdir.



Qazıntılar və maddi-mədəniyyət materialları göstərir ki, insanlar əvvəllər vəhşi atları ovlayaraq onların ətindən və dərisindən istifadə etmişlər. Vəhşi atların əhliləşdirilməsi və onların insan tərəfindən yetişdirilməsi neolit dövrünün axırlarına, tunc dövrünün əvvəllərinə - yeni eradan 3000-3500 il əvvələ aid edilir.

Atlar əsasən 25-30 il yaşayır. Lakin İngiltərənin bəzi at növləri 62 ilə qədər yaşaya bilir. Bu, insan həyatı ilə müqayisədə 173 il deməkdir. Belə ki, atın həyatının birinci ilini insan həyatının 12 ili ilə müqayisə edirlər. İkinci ili 7 il, sonrakı 3 ilin hərəsi 4 ilə bərabərdir. 6-cı ildən başlayaraq, atın hər ili insan həyatının 2,5 ilinə çatır.

Dünyada 160-a yaxın at növləri var. Lakin bu at növlərindən ən güclüsü ərəb atlarıdır.

Atların duyğu orqanları çox yaxşı inkişaf edib. Onlar insanların eşidə bilməyəcəkləri səsləri rahatlıqla duyurlar. Atların iybilmə qabiliyyətləri də yüksək səviyyədədir. Onlar görmə qabiliyyətlərini itirsələr belə, iybilmə qabiliyyətləri sayəsində istənilən məsafəni qət etməyə malikdirlər. Atlar həmçinin iybilmə qabiliyyətləri sayəsində otların yeməli olmasını da müəyyən edə bilirlər. Aparılan araşdırmalar göstərib ki, qan qoxusu atları çox narahat edir.

Bir çox heyvanlardan fərqli olaraq atlar ətrafı rəngli çalarlarla görə bilirlər. Lakin qırmızı və göy rəng atlar üçün görünməz olaraq qalır. Atların bir unikal xüsusiyyətləri ondan ibarətdir ki, onların görmə bucağı 360 dərəcə təşkil edir. Bu isə o deməkdir ki, atlar nəinki yanlarında və öndə, hətta arxada nə baş verdiyini görürlər. Onlar qaranlıqda da çox rahatlıqla görə bilirlər.

Atların dırnaqları ən incə duyğu orqanlarından hesab edilməklə yanaşı, həmçinin qan dövranında da mühüm rol oynayır. Dırnaqlara düşən ağırlıq qüvvəsi onlara təzyiq edərək qanın yuxarı hərəkət etməsini təmin edir.

Çəkisinin ağır olması səbəbi ilə atın ayaqlarından birinə zərər dəyərsə, o biri üç ayağı üstə dura bilmir. Bu baxımdan ayaqdan zədələnmək atlar üçün böyük əziyyətdir. Bu zədə çox uzun müddətə sağalır və atın inkişafının qarşısını alır.

Həssas və emosional heyvan olan at insanın səsindən, üz ifadəsindən onun hisslərini, ruh halını anlaya bilir. Yəqin buna görə də insanların sədaqətli və etibarlı dostu sayılır.

Alimlər tədqiqatlar zamanı atların musiqilərin ritmlərini ayıra bildiyini də öyrəniblər. Atların hətta sakit musiqilərə qulaq asan zaman rahatlıqla yatdıqları müşahidə edilib. Rok janrlı bərk musiqilərdən isə həyəcanlanırlar.

Sağlıq olsun

# Gen "kitabı"mız - DNT

Bütün orqanizmlər DNT-yə sahibdir. Dezoksiribonuklein turşusu (DNT) canlı orqanizmin formalaşması və həyati proseslərini davam etdirməsi üçün irsi informasiyanın saxlanıldığı, nəsillər arasında ötürülən biopolimerdir.



DNT tarixdə ilk dəfə isveçrəli həkim Fridrix Mişer tərəfindən 1869-cu ildə kəşf edilib. Zülallar üzərində tədqiqat aparan Mişer, onlardan çox fərqli özəlliklərə sahib olan və sadəcə hüceyrə nüvəsində tapılan bir maddə diqqətini cəlb edincə, bu yeni maddəyə nüvə mənasına gələn "nuklein" adını verib.

Mütəxəssis genetik Elxan Rəsulov deyir ki, insan bədənində 50 mindən artıq gen var. Hər bir genin nukleotid ardıcıllığında minlərlə, on minlərlə nukleotid var. Bu həm bitki, həm də heyvanat aləminə aiddir, yəni eyni qanunauyğunluğa demək olar ki, bütün canlılarda rast gəlinir. DNT-dəki bu məlumatlar sadəcə fiziki xüsusiyyətləri müəyyənləşdirmir. Eyni zamanda hüceyrə və orqanizmdəki minlərlə müxtəlif hadisə və sistemə də nəzarət edir. O cümlədən irsi xəstəliklər nukleotidlərdə baş verən dəyişikliklərlə əlaqədardır.

Mütəxəssis bu dəyişikliklərin yaranma səbəbləri və nəticələri haqda bildirir ki, insanda 6 mindən artıq irsi xəstəlik mövcuddur. Bu xəstəliklərin yaranma səbəblərindən biri də bir nukleotidin digəri ilə əvəzlənməsi ola bilər. Yaxud bir nukleotidin çatışmazlığı və ya əksinə, artıqlığı yaranar. Bunlar mutasiyalar olub xarici mühitin orqanizmə təsirindən əmələ gələ bilər. Kimyəvi, fiziki və bioloji təsirlər var. Kimyəvi təsirlər deyəndə əsasən dərmanlar, fiziki təsirlər ultrabənövşəyi şüalar, radiasiya, elektromaqnit dalğalar, bioloji təsirlər isə ən sadə halda, qrip xəstəliyi və ya məxmərək nəzərdə tutulur.

Nukleotidlərdə baş verən dəyişikliklər talassemiya xəstəliyinin yaranma səbəblərindən də biridir. Bir nukleotidin digəri ilə əvəzlənməsi irsi qan xəstəliyi olan talassemiyaya səbəb ola bilər.

### DNT analizi

Mütəxəssis məlumat verir ki, son zamanlar genetika sahəsində elmi irəliləyişlərə nail olunub. Ana bətnindəki dölün genetik aparatı, yəni DNT molekulu nüvədə yerləşir. Bundan əlavə, nüvə daxilində olan metaxondrilərin ayrıca genetik aparatı var. Onun tərkibində 25-30 gen olur. Əgər bunlardan birində mutasiya baş verirsə, bu, əzələ-sinir sistemində xəstəliyə gətirib çıxarır. Bunun qarşısını almaq üçün ananın nüvəsi donorun hüceyrə nüvəsi ilə əvəz olunur. Beləliklə, müasir genetikanın bu kimi imkanı sağlam uşaqların dünyaya gəlməsi ilə nəticələnir.

İnsan genetikası, fiziologiyası haqqında ətraflı məlumat almaq üçün yalnız bir üsul var - DNT analizi. DNT insan orqanizminin məlumat bankıdır. Bu məlumat bankı istər içində yerləşdiyi hüceyrənin, istərsə də bədəndəki digər bütün hüceyrələrin quruluşları və ehtiyacları haqqında hər cür məlumatı saxlayır.

DNT analizi ölkəmizdə "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya" Elmi-Təcrübi və Tədris Birliyindəki müasir avadanlıqlarla təchiz olunan molekulyar-genetik laboratoriyada həyata keçirilir. Bu laboratoriyada mülki və cinayət işləri ilə bağlı məhkəmə-istintaq orqanları tərəfindən təyin edilən qərar əsasında məhkəmə-tibbi genetik ekspertizalar beynəlxalq normalara uyğun həyata keçirilir.

DNT-nin təhlilinə əsasən keçirilən genetik ekspertizalar zamanı mübahisəli atalığın, analığın, qohumluq əlaqələrinin təyini, cinayət törədildikdə hadisə yerindən götürülən bioloji mənşəli obyektlərin (qan, ağız suyu, dırnaq, tük və s.) tədqiqi zamanı şəxsiyyətin identifikasiyası həyata keçirilir.

Təcrübə sübut edir ki, kütləvi insan tələfatı ilə nəticələnən hadisələrdə aşkarlanan, tanınmaz hala düşən meyit və ya meyit qalıqlarının identifikasiyası zamanı genetik metodların tətbiqi olmadan konkret nəticə əldə etmək mümkün deyil.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bilirik?

- İnsan DNT-sindəki məlumat yazıya köçürülsəydi, hər biri 1000 səhifə olan və hər səhifəsində 3000 hərf olan 1000 kitab ortaya çıxardı;
- İnsan bədənində 3 milyona yaxın DNT, yəni nukleid var;
- DNT molekulunda dörd növ azotlu əsas mövcuddur. İnsanın boyu, kütləsi, gözünün, dərisinin rəngi həmin 4 nukleotidin DNT molekulunda müxtəlif ardıcıllıqla birləşməsinin nəticəsində nəsildən-nəsilə ötürülür;
- Bütün insanların DNT ardıcıllığı 99.9 faiz oxşarlıq göstərir, qalan 0,1 faiz isə insanı fərqli edən qismdir. Eyni zamanda bu, 0,1 faiz fərqli insan DNT ardıcıllığını müəyyən etmək üçün kifayətdir;
- Hər hüceyrənin DNT-si gündə təxminən 1 milyon dəfə zərər görür. Bu mutasiyaların əksəriyyəti təsirsizdir, nadir hallarda faydalı və zərərli təsirləri də ola bilər. Zərərli təsirlər zamanı DNT bərpa mexanizmləri sayəsində bərpa olunmasına çalışılır. Əgər zərərli bir mutasiya bərpa edilə bilməsə, hüceyrə zədələnir və xərçəng ehtimalı yaranır;
- İnsanın DNT ardıcıllığı ilə bananın DNT ardıcıllığı 55 faiz oxşardır;
- Tədqiqatçılar hesablayıblar ki, DNT molekulunun yarısı 521 ildən bir çürüyür;
- İnsan bədənində 100 trilyon hüceyrə var. Bu hüceyrələrin DNT-ləri açılıb yan-yana düzülsə, Yerlə Ay arasındakı məsafənin 600 qatına bərabər olar.

Tibbi yenilik

## İnsanın DNT analizinə görə xəstəliyi müəyyənləşdiriləcək



**ABŞ-ın Miçiqan Universitetinin alimlərinin hazırladığı neyron şəbəkə DNT-yə görə insanların boyunu dəqiqliklə proqnozlaşdırır və potensial riskli ciddi xəstəlikləri (ürək xəstəlikləri, xərçəng) qiymətləndirir.**

Məlumata görə, kompüter alqoritmi ilk dəfə boy, sümüklərin sıxlığı və insanın nail olacağı təhsil səviyyəsi kimi keyfiyyətləri proqnozlaşdırmağa çalışır. Bunların müəyyənləşdirilməsi üçün neyroşəbəkə yalnız genoma əsaslanır. Böyük Britaniyanın "UK Biobank" DNT bazasının - səhiyyə haqqında beynəlxalq informasiya resursunun məlumatlarından istifadə edən alqoritm 500 min nəfərin DNT-sini analiz edərək insanlar arasında fərqli cəhətləri aşkarlayıb və onların xüsusiyyətlərini müqayisə edib. Testlər zamanı kompüter hər insanın boyunu 1 santimetr dəqiqliklə proqnozlaşdırıb.

Mütəxəssislərin fikrincə, indi bu üsulu ciddi xəstəliklərlə əlaqədar digər mürəkkəb əlamətlərin proqnozlaşdırılması üçün də tətbiq etmək olar. Bu, həkimlərə mümkün qədər tez profilaktika aparmağa, potensial xəstəliyin qarşısını almağa və ya yubatmağa imkan verəcək.

Düzgün yaşam

## Diqqət: gen sağlığınız üçün bunlardan uzaq durun

**Britaniyadakı "Human Molecular Genetics" jurnalında dərc edilən araşdırma nəticələrinə əsasən, tütün maddəsi genlərin fəaliyyətinə mənfi təsir edən kimyəvi xüsusiyyətlərə malikdir.**



Həmin amillər insanın DNT-sinə çox pis təsir edir, bəzi genləri gərəkliyindən artıq çalışmağa vadar edir. Həmçinin DNT-də mutasiyaya səbəb olan ən başlıca səbəblər Günəşin bənövşəyi şüaları və narkotik maddələrdir.

Araşdırmalara görə, DNT-yə təsir edən başqa bir amil ağır metal zəhərlənmələridir ki, əsasən uşaq və yaşlılarda daha çox müşahidə edilir. Zəhərli maddələr toxumalarda yığılaraq xroniki xəstəliklərə səbəb olur. DNT-ni zədələdiyinə görə, xərçəngə də təkan verir. Ağır metallar daha çox beyin və böyrəklərdə yığılmağa meyillidir və hüceyrələrin, orqanların normal funksiyasını pozaraq ciddi zədələr yaradır.

Sənaye tullantıları, ətraf mühitin çirklənməsi, kənd təsərrüfatında istifadə edilən dərmanlar, ziyanverici həşəratlara qarşı istifadə edilən dərmanlar, mətbəx məhsulları, amalgam ehtiva edən plomblar, kosmetik məhsullar, çirkli sularda yaşayan dəniz canlıları ağır metal zəhərlənmələrində ən mühüm mənbələrdir.

Buna görə kosmetik məhsulların tərkibinə diqqət edilməlidir. Çirkli sularda yaşayan dəniz canlıları, xüsusilə dib balıqları, midye (dəniz ilbizi) qəti şəkildə yeyilməməlidir. Metal süzgəclərdən keçən suların istifadəsindən qaçınmaq lazımdır. Teflon tava və qazanlar, hətta cızılmış polad (tərkibində nikel var) qazanlar da təhlükəlidir. İdxal edilən boyalı ucuz oyuncaqlar, istehsal yeri məlum olmayan boyalar, kökü bəlli olmayan keramik qablar, alüminium folqa mətbəxdə (xüsusilə isitmək məqsədli) istifadə edilməməlidir.

Elmi araşdırma

## Ağıl genetik imiş



**İngilis araşdırmaçı İmperial Collac insanların ağlını müəyyənləşdirən genlər tapıb. Araşdırmalar zamanı ağlın 75 faizinin genetik, geri qalanının isə məktəb və ətrafdakı şəxslərdən asılı olduğunu ortaya qoyub.**

Məlum olub ki, həmin genlər mutasiyaya uğradığı zaman düşünmə durğunluğu və zehni problemlər yaranır. Əks halda isə sürətli düşünmə və parlaq zəka özünü daha yaxşı göstərir.

İndiyə qədərki araşdırmalarda yaddaş, diqqət, beyinin sürəti və məntiq genləri haqda dəqiq məlumat əldə edilməmişdi.

Beyin xəstəliklərinin genetik səbəbləri araşdırılarkən isə HMGA2 geninin variasiyaları aşkarlanıb. Məlum olub ki, HMGA2 geninin müəyyən kimyəvi strukturu olanda insanlar başqaları ilə müqayisədə daha ağıllı olurlar. Bu isə genetik koddakı kiçik dəyişikliklərin insanlar arasında intellektual fərqlərə səbəb olmasını təsdiqləyir.

Şəfalı bitkilər

## DNT-ni zədələnməkdən qoruyan möcüzəvi tərəvəz



Alimlər qırmızı soğanı ən faydalı soğan növü hesab edirlər. Quelf Universiteti (Kanada) alimləri qırmızı soğanın xərçəng toxumalarına olan təsirini araşdırıblar.

Məlum olub ki, qırmızı soğanın tərkibində olan kversetin və antosian maddələri bağırsaq xərçəngi toxumasının artmasını ləngidir.

Kversetin DNT-ni zədələyən və xərçəngin inkişafına təkan verən sərbəst radikalları neytrallaşdırır və həmçinin orqanizmə iltihab əleyhinə təsir edir.

Antosian maddələri də qırmızı soğanın xərçəng əleyhinə xüsusiyyətlərini artırır. Mütəxəssislər xərçəng xəstəliyinə qarşı profilaktika məqsədi ilə qidalanmaya daha tez-tez qırmızı soğanı daxil etməyi tövsiyə edirlər.

# N.Paşinyanın növbəti hədəfi S.Sarkisyandır

## Ermənistanda ictimai-siyasi vəziyyət daha gərgin mərhələyə keçib

Ermənistanda hakimiyyəti ələ keçirmiş baş nazir Nikol Paşinyan ötən ilyarımda nə qədər çək-çevir etsə də, nəinki ölkə ictimaiyyətinin, hətta yaxın tərəfdarlarının da ümidlərini doğrulda bilmir. Hökumət başçısının vaxtilə verdiyi vədlər söz olaraq qalır, cəmiyyətdə siyasi ab-havanı sabitləşdirmək, milli iqtisadiyyatı irəli aparmaq üçün elə bir təsirli tədbir görülmür.

Paşinyan indiki halda boşboğazlıqdan o tərəfə keçmir, xalq isə davam edən siyasi kataklizmləri müşahidə etmək məcburiyyətində qalır.

Bütün bunlara paralel olaraq Ermənistanın yeni hakimiyyəti ilə Sarkisyan-Koçaryan koalisiyası arasında yaranan qarşıdurma ölkədə siyasi sahə ilə yanaşı sosial-iqtisadi sferada da ciddi problemlər yaradır. Hakimiyyət dəyişikliyindən sonra yeni iqtidarın sələflərinə qarşı ən sərt üsullarla hücuma keçilməsinə dair verilən proqnozlar isə özünü doğrultmaqdadır.

Robert Koçaryanın ardınca bütün rəqiblərini həbs etməkdə israrlı olan baş nazirin növbəti əsas hədəfi sabiq prezident Serj Sarkisyandır. O, bunun üçün səbəblər də tapıb. Belə ki, Serj Sarkisyan dövlət büdcəsindən 2013-cü il yanvarın 25-dən fevralın 7-dək 489 milyon dram (1 milyon dollardan çox) pulu mənimsəmədə və israf etməkdə ittiham olunur. Sabiq prezidentin ölkədən çıxması ilə bağlı qadağa qərarı qəbul edilib. Serj Sarkisyana qarşı ilkin istintaq araşdırmaları çərçivəsində Ermənistan Cinayət Məcəlləsinin 38-179-cu maddələrinə (mənimsəmə və israfçılıq) əsasən ittiham irəli sürülüb.

"Lragir" qəzetinin yazdığı xəbərə görə, 24 yanvar 2013-cü ildə hökumət torpaq istifadəçilərinə dövlət dəstəyi proqramını təsdiqləyib. Proqrama əsasən təxminən 17 milyon litr dizel yanacağı satılıb. Məbləğ regional idarəetmə və Kənd Təsərrüfatı Nazirliyi sisteminin müraciətləri əsasında ayrılıb.

"Maksxur" və "Fleş" şirkətləri də daxil olmaqla dizel yanacağının tədarükünə görə keçirilən tenderdə iştirak üçün bir neçə şirkət ərizə təqdim edib. "Maksxur" daha aşağı qiymət təklif edib. Nəticədə bu şirkətin müraciəti hökumət tərəfindən təsdiqlənmək üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təqdim edilib. Serj Sarkisyan "Maksxur"un daha sərfəli təklifinə məhəl qoymayıb və rəsmi mövqeyindən istifadə edərək tabeliyindəki şəxslərə "Fleş" şirkətinin xeyrinə seçim etməyi tapşırıb. Nəticədə hökumətin 7 fevral 2013-cü il tarixli qərarı ilə 17.041.300 litr dizel yanacağı almaq üçün hökumətin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 1,7 milyard dramdan çox vəsait ayrılıb. Bu pul "Fleş" şirkətinin hesabına köçürülüb. Sonradan hökumətin qərarı ilə tələb olunan yanacağın miqdarı 17.343.530 litrə qədər artıb, məbləğ isə 1.821.070.650 drama çatıb.

Yekunda 14 fevral - 28 iyun arasında 12 ton dizel yanacağı satılıb, bunun üçün 1.269.275.070 dram subsidiya ayrılıb. Faktiki olaraq dövlət büdcəsindən 423.091.690 dram artıq pul ödənilib. Serj Sarkisyan bu xəbərə hələ ki, heç bir reaksiya verməyib.

Görünən odur ki, bu gedişlə Sarkisyanın da həbsi qaçılmaz olacaq. Ermənistan mediası bu olayların, Koçaryanın həbsinin ardınca Sarkisyanın ittiham olunmasının uzun illərdir Ermənistanda qeyri-konstitusion fəaliyyət göstərən rejimin aradan qaldırılmasından xəbər verdiyini yazır. Bildirilir ki, Robert Koçaryan prezidentliyi dövründə konstitusiya quruluşunun devrilməsinə səbəb olub. Ölkə mətbuatı buna misal olaraq 1 mart hadisələrini göstərib.

"Qraparak" nəşri yazır ki, Robert Koçaryan xələfi Serj Sarkisyana da güc verib. Belə ki, Serj Sarkisyan 10 il ərzində hakimiyyəti devrilmiş konstitusiya quruluşu ilə idarə edib. Qeyd olunur ki, 1998-ci ildə Robert Koçaryan və siyasi tərəfdaşları seçki saxtakarlığı edərək 20 il müddətinə qanunsuz olaraq hakimiyyəti işğal ediblər. 2003-2004-cü illərdə Koçaryan hakimiyyətinə qarşı çıxanlar kütləvi şəkildə həbs olunublar və sui-qəsdlərə məruz qalıblar. Robert Koçaryan və Serj Sarkisyan parlamentdə, o cümlədən ayrı-ayrı dövlət qurumlarında terror aktları həyata keçirib. Bir sözlə, Ermənistanda son 20 illik hakimiyyət terror, cinayət və qorxu ilə idarə olunub.

Beləliklə, Sarkisyanın ətrafında baş verənlər göstərir ki, başqa xalqa qarşı cinayət törədənlər heç zaman öz xalqına xoşbəxtlik gətirə bilməz. Cinayətkar həmişə cinayətkardır. Hətta öz xalqına qarşı da o, cinayət törədir. Bu fonda beynəlxalq tribunal qarşısında dayanmazdan əvvəl Serj Sarkisyanın Ermənistanda həbsi və mühakiməsi tamamilə təbii sayılmalıdır. Azərbaycan torpaqlarının işğalında, Xocalı faciəsinin baş verməsində xüsusi rola malik olan Sarkisyan şübhəsiz ki, beynəlxalq tribunalda da bu əməllərinə görə cavab verəcək.

Bütün bunlara baxmayaraq, Nikol Paşinyan "Ermənistanı çirkabdan təmizləmək üçün ciddi islahatlar həyata keçirmək lazımdır" fikrini səsləndirsə də sələflərinin etdiyi səhvləri təkrarlayır. Əhali postinqilabçı Ermənistanın həyata keçirəcəyi yenilikləri gözləmələrinə baxmayaraq köhnə proseslərlə qarşılaşdılar. Bildirilir ki, yeni hökumət ilyarım əvvəl erməni ictimaiyyətinə vəd verdiyi islahatları reallaşdırmayacağı təqdirdə Paşinyan komandasının həyata keçirdiyi "inqilab" məğlub hesab ediləcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Ermənistana aparan istintaq izləri...

1988-ci il fevral ayının sonlarında Sumqayıt şəhərində baş verən hadisələr ermənilərin və havadarlarının Azərbaycan xalqı ilə bağlı beynəlxalq ictimaiyyətdə mənfi imic yaratmaq məqsədi güdən qanlı cinayətlərindən biri idi. Bu hadisələr nəticəsində Sumqayıtda müxtəlif millətlərdən olan 32 nəfər həlak olmuş, 400-dən çox insan bədən xəsarəti almış, 200-dən çox mənzil talan edilmiş, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomaşın sındırılmış və yandırılmış, şəhərə ovaxtkı qiymətlərlə 10 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur.

Sumqayıtda baş verən hadisələrdə əsas təşkilatçılardan və icraçılardan biri Eduard Qriqoryan idi. O, iki dəfə məhkum olunmuşdu və heç yerdə işləmirdi. "Krunk"un fəal üzvü idi. İstintaq qrupunun materiallarından aydın olur ki, 1988-ci il fevral ayının ortalarında onun yaşadığı mənzilə Yerevandan bir qrup emissar gəlib. Belə ki, Qriqoryan təlimatlandırılmış, ona pul, narkotik vasitələr verilmişdi. "Paşa" ləqəbli Edik ertəsi gün ətrafına bir neçə azyaşlı yeniyetmə və gəncləri toplayıb, yaxın günlərdə bəzi əməliyyatlarda iştirak etsələr, çoxlu pul verəcəyini bildirərək onları şirnikləndirmiş və 1988-ci il fevral ayının 27-29-da Sumqayıtda iğtişaşlara rəhbərlik etmişdi.

Təəssüf ki, 1988-ci ildə işin istintaqı tam, hərtərəfli və obyektiv araşdırılmamış, hadisələrin əsl mahiyyəti gizlədilmiş, cinayətlərin bütün iştirakçıları, əsasən də təşkilatçıları müəyyən edilməmiş, hadisələrin başvermə səbəbləri və şəraiti aydınlaşdırılmamışdır.

Hərbçilər tərəfindən tutulmuş Eduard Qriqoryanın ifşa edilməsi isə istintaqın yox, zərərçəkmiş Mejlumyan bacılarının onu özlərinə qarşı zorakılıq edənlərdən biri kimi tanımaları nəticəsində mümkün olmuşdu.

Fevralın 27-də Sumqayıt şəhər prokuroru İsmət Qayıbov baş vermiş iğtişaşlarla bağlı cinayət işi başlatsa da, dörd gün sonra Moskvadan göndərilmiş SSRİ Baş Prokurorluğunun istintaq qrupu bu işi öz icraatına götürmüş, Sumqayıtın və ümumiyyətlə, Azərbaycanın hüquq mühafizə orqanlarının əməkdaşlarını istintaq-əməliyyat tədbirlərindən kənarlaşdırmışdı.

Belə bir şəraitdə ermənilərin əvvəlcədən, qeyd-şərtsiz zərər çəkmiş tərəf kimi tanınması asanlaşmış, tutulan ermənilərin hamısı "səhvən yaxalanmışlar" kimi azadlığa buraxılmışdı.

### Sumqayıt hadisələrində kontrmaterialların toplanmasında Xaçaturyanın əli var idi

Moskvadan gələn müstəntiqləri isə daha çox azərbaycanlılar maraqlandırırdı. Onlar Sumqayıtda özlərini həyasızcasına aparır, dindirmələr zamanı azərbaycanlılarla amansız rəftar edirdilər. Sumqayıt hadisələri zamanı DTK-nın Sumqayıt şəhər şöbəsinin əməliyyat müvəkkili Asif Cəbrayılov məlumat verib ki, bu qrupun içində erməni millətindən olanlar da var idi. Xaçaturyan Moskva DTK-da fəaliyyət göstərən zabit idi. Bu zabitin azərbaycanlılara qarşı çox neqativ münasibəti var idi və onun fəaliyyəti barədə mütəmadi olaraq qrupun rəhbərliyinə şikayət edilirdi: "O, azərbaycanlılara qarşı qeyri-qanuni hərəkətlər edir, təhqiramiz sözlər deyirdi. Bu, bizim qürurumuza dəyirdi, bu barədə müraciətlər edəndə vəd verirdilər ki, onun haqqında tədbir görəcəklər. Ancaq heç bir tədbir görülmürdü. O, Sumqayıtda gənclərin qanunsuz olaraq saxlanılmasına rəhbərlik edirdi. Baxmayaraq ki, bu gənclərin hadisələrə aidiyyəti var və ya yox idi. Qadınlara təhqiramiz münasibət göstərirdilər. Kontrmaterialların toplanmasında Xaçaturyanın əli var idi".

Həmin qrupdakı müstəntiqlər hər vəchlə Sumqayıt iğtişaşlarında erməni izlərini silməyə çalışırdılar, amma hətta erməni zərərçəkənlər belə onların varlığını təsdiqləyirdi. Məsələn, Sumqayıt talanlarının şahidi və evinə hücum olunan şəxslərdən biri - Melkumyan Roza Antonovna Yerevanda dindirilmə zamanı bunları deyib: "Hətta biz Yerevan ləhcəsində onlar kimi danışa bilmirik. Üç-dörd nəfər oğlan erməni dilində danışır və deyirdi: "Yox, biz ona görə gəlməmişik ki, onları sağ saxlayaq. Biz gəlmişik ki, hər şeyi yandıraq, yaxud onları öldürək. Biz onları buraxmayacağıq".

Gözdən əlil olan Esiyan Levon da 22 sentyabr 1988-ci ildə verdiyi ifadədə ona hücum edən şəxslər haqqında deyir: "Xatırlayıram ki, erməni dilində söyürdülər. Özü də erməni dilində təmiz, aksentsiz danışırdı, bu adam erməni dilində sərbəst danışırdı".

### Axtarış üçün Bakıda və Daşkənddə dəqiq ünvanlar olsa da...

1988-ci il avqustun 23-də Azərbaycan DTK-da Sumqayıt hadisələri ilə bağlı fəaliyyət planı təsdiqlənir. Planda deyilir ki, "Sumqayıt talanlarında təşkilatçı kimi iştirak etmiş Eduard Qriqoryan talanlar ərəfəsində Stepanakert şəhərinin sakini Sərkisyan Suren Yuryeviçlə görüşüb. Sərkisyan əvvəllər Qriqoryanla bir yerdə cəzaçəkmə müəssisəsində cəza çəkib. Qriqoryan ermənilərin siyahısını və narkotik təsirli həbləri ondan alıb və daha sonra həmin həbləri iğtişaş iştirakçılarına paylayıb".

Həmin vaxt Azərbaycan SSR DTK-nın Sumqayıt şəhər şöbəsinin rəisi polkovnik-leytenant Lebedev Dağlıq Qarabağ Muxtar Vilayətinin DTK şöbəsinin rəisi Voykaya məktub ünvanlayaraq Sərkisyan Yuryeviç adlı şəxsi tapmaqda ondan kömək istəyir. 10 gündən sonra bununla bağlı Stepanakertdən cavab alır. Cavabda bildirilir ki, Sərkisyan hazırda Daşkənddə yaşayır. Stepanakertdə Pioner küçəsi, ev 4-də onun atası Sərkisyan Yuri Baxşiyeviç yaşayır. Şəhərlərarası telefon stansiyasının məlumatına əsasən onun atasının mənzilindən Daşkəndə 202-64-97 nömrəli telefona zəng olunub. Bakı şəhərində isə 74-17-18 və 64-94-40 nömrəli telefonlara zəng edilib.

Qəribədir ki, DTK-nın əməliyyat axtarış tədbirləri bundan sonra davam etdirilməyib. Halbuki axtarış üçün Bakıda və Daşkənddə dəqiq ünvanlar var idi. Sərkisyanın axtarılması haqda məlumatlar ictimaiyyətdən gizlədilib və axtarışı heç bir izahat verilmədən dayandırılıb...

### Yerevandakı idman-konsert kompleksinin direktorunun avtomobili niyə hadisələr zamanı Nasosnıda idi?

Sumqayıtdan Ermənistana uzanan və Ermənistanda izi itən istintaq izlərindən biri də Yerevandakı idman-konsert kompleksinin direktoru Robert Amayakoviç Çaqikyana məxsus avtomobillə bağlıdır. Bayramov soyadlı bir vətəndaş fevralın 15-20-si arasında evə qayıdarkən içərisində 4-5 kişinin olduğu Ermənistan seriyalı maşının Nasosnı (indiki Tağıyev qəsəbəsi) ərazisində olduğunu görüb. Bu nömrə nişanlı avtomobilin kimə məxsusluğu və fevralın 15-dən 30-dək harada olması ilə bağlı Ermənistan DTK-ya şifrteleqram ünvanlanıb. Yerevandan alınan cavabda isə teleqramın yalnız bir hissəsinə cavab verilib ki, həmin nömrə nişanlı Qaz-24 markalı ağ rəngli avtomobil Yerevandakı idman-konsert kompleksinin direktoru Çaqikyan Robert Amayakoviçə məxsusdur...

Ümumiyyətlə, istintaq materiallarında tez-tez belə ifadələrə rast gəlinir: "sumqayıtlı olmayan", "qara plaşlı", "erməni dilində danışan" və s. Bu, sıravi istintaqçıların da diqqətini cəlb edirdi. Bəzi ifadələrdə, hətta istintaqçıların da həmin adamları axtardıqları, amma bu məsələnin sonuna çata bilmədikləri məlum olur.

1988-ci ildə Oryol vilayət Prokurorluğunun böyük müstəntiqi, SSRİ Prokurorluğunun Sumqayıt hadisələrini araşdıran istintaq qrupunun üzvü Niyazi Vəlixanov da bildirib ki, "Qara plaşlılar" barəsində məlumatlar daxil olurdu, onların şəxsiyyətinin müəyyən edilməsi üçün əməliyyat tapşırıqları verilirdi, ancaq o işlərin hansı qaydada həll olunması və onların nəticəsi bizə bildirilmirdi: "Katusev (SSRİ Baş prokurorunun müavini) gələndən sonra göstəriş verdi ki, "işlər yekunlaşsın, məhkəməyə göndərilsin", bundan sonra o məsələlər istintaq qrupu üçün maraq kəsb etmirdi. Ona görə də onun sonrakı taleyi mənim üçün aydın deyil".

Ümumiyyətlə, Sumqayıt hadisələrinin istintaqını aparmış SSRİ Baş Prokurorluğunun istintaq qrupunun tərkibində fəaliyyət göstərmiş, istintaq qrupunun rəhbəri SSRİ Baş Prokurorluğunun xüsusi ilə mühüm işlər üzrə baş müstəntiqi Qalkin familiyalı bir nəfər olub. İş üzrə əsas istintaq hərəkətlərini SSRİ Baş Prokurorluğundan və RF-nin müxtəlif vilayətlərindən dəvət olunan müstəntiqlər icra edib, aparılan istintaq hərəkətlərini ermənilər və xarici dövlətlərin xüsusi xidmət orqanları təşkil edib, istintaq qrupunun rəhbəri cinayətin təşkilatçılarının müəyyən edilməsi istiqamətində demək olar ki, istintaq hərəkətləri aparmayıb, onların ifşa olunmasında maraqları olmayıb. Buna görə də əsas cinayətin icraçıları barəsində işlərin tezliklə tamamlanıb məhkəməyə göndərilməsini tələb edib və Azərbaycan millətindən olan müstəntiqlərin əsas istintaq hərəkətlərini saxlamağa çalışıb.

### İstintaqı dayandırılan 5 cinayət işinin icraatı təzələnib

Ona görə də hadisələrin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycanın qəti siyasi iradəsinin təzahürü olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və Azərbaycan Respublikası Baş prokurorunun 19 mart 2010-cu il tarixli qərarı ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılan 5 cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirilib və istintaqın aparılması Baş prokurorun birinci müavininin rəhbərliyi ilə prokurorluq, daxili işlər və təhlükəsizlik xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edilib.

Respublikamızın istintaq qrupu tərəfindən toplanan materialların qiymətləndirilməsi və təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilən təxribat olub. SSRİ Konstitusiyası əsasında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuniliyini dərk edən erməni ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq istəyiblər. Azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atıblar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm



## Meksikada iri neft yatağı aşkarlandı

Meksikanın "Petroleos Mexicanos" (Remex) dövlət neft, qaz və neft-kimya şirkəti ölkənin cənub-şərqində yerləşən Tabasko ştatında quruda iri neft yatağı aşkar etmişdir. Yatağa "Keski" adı verilmişdir. Bu barədə "El Universal" qəzeti xəbər verir.

Şirkətin baş direktoru Oktavio Romero Oropesa bu kəşfi 1987-ci ildən bəri ölkənin cənubunda edilmiş kəşflərin ən vacibi olduğunu bildirmişdir.

Xatırladaq ki, 2017-ci ilin noyabrında Remex Verakrus ştatının Kosamaloapan rayonunda ehtiyatı 1,5 milyard barel olan neft yatağının tapıldığını elan etmişdir.

Meksikanın bundan əvvəlki prezidenti Enrike Penya Nyeto deyirdi ki, şirkət neft hasilatının səviyyəsinin aşağı düşməsi ilə üzləşmişdir. O vaxt neft hasilatının səviyyəsi ən yaxşı halda gündə 2,1 milyon barelə çatırdı.

## Slovakiyada yaşayış evində partlayış



Slovakiyanın şərqində yerləşən Preşov şəhərində 13 mərtəbəli yaşayış evində qaz partlaması nəticəsində azı 5 nəfər həlak olmuş, 40 nəfərə yaxın adam xəsarət almışdır. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Partlayışdan sonra başlamış yanğın binanın yuxarı mərtəbələrini bürümüşdür.

Mütəxəssislər evin uça biləcəyini istisna etmirlər. Yanğınsöndürənlər və xilasedicilər binanı yoxlamış və 34 sakini təxliyə etmişlər. Ölkənin Baş Naziri Peter Pelleqlini və Daxili İşlər naziri Denisa Sakova hadisə yerində olmuşlar.

Bu, son yarım əsr ərzində şəhərdə baş vermiş ən böyük faciədir.

## İraqda bir jurnalist həlak oldu, biri oğurlandı



İraqın paytaxtı Bağdadda davam edən hökumət əleyhinə nümayişlər zamanı hərbi fotomüxbir Əhməd Mühənna həlak olmuşdur. O, Xəllani meydanında aldığı bıçaq yarasından dünyasını dəyişmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, jurnalist etiraz aksiyalarını işıqlandırarkən naməlum şəxslərin hücumuna məruz qalmışdır. O, ölkənin müxtəlif regionlarında baş verən hadisələri, habelə İŞİD terrorçuları ilə mübarizəni işıqlandırırdı.

Eyni zamanda başqa bir fotomüxbir - Zeyd Məhəmməd Xəfaci evinin qabağında naməlum şəxslər tərəfindən oğurlanmşdır.

Digər tərəfdən, Xəllani meydanında naməlum şəxslər etiraz aksiyası iştirakçılarına atəş açmışlar. Nəticədə 16 nəfər həlak olmuş, 70 nəfər yaralanmışdır.

## Tramp Dünya Bankından Çinə kredit verməməyi tələb edir



ABŞ Prezidenti Donald Tramp hesab edir ki, Dünya Bankı Çinə kredit verməyi dayandırmalıdır. O, bununla bağlı Twitterdəki səhifəsində yazmışdır: "Niyə Dünya Bankı Çinə borc pul verir? Bu necə ola bilər? Çinin pulu kifayət qədərdir, pul çatmayanda isə onlar onu yaradırlar. Buna son qoymaq lazımdır!"

Cari ilin aprel ayında ABŞ Maliyyə nazirinin beynəlxalq məsələlər üzrə müavini Devid Melpas Dünya Bankına rəhbər təyin edilmişdir. O, Çinə böyük məbləğdə kreditlər verdiyinə görə bankı tənqid edirdi.

Ötən ildən etibarən Tramp Çində istehsal olunmuş bir sıra mallara qoyulan gömrük rüsumlarını qaldırdıqdan sonra ABŞ və Çin ticarət müharibəsi vəziyyətindədir. Pekin cavab tədbirləri görmüşdür. Hazırda tərəflər ticarət sazişi barədə danışıqlar aparır.

## Səudiyyəli zabit Floridada üç nəfəri güllələdi




ABŞ-da bu həftə ərzində hərbi bazada odlu silahdan istifadə etməklə ikinci hadisə baş vermişdir. Səudiyyə Ərəbistanından olan zabit Florida ştatının Pensakola şəhərində ABŞ hərbi dəniz qüvvələrinin aviasiya bazasının ərazisində atəş açmışdır. Nəticədə 3 nəfər həlak olmuş, azı 8 nəfər yaralanmışdır. Bu barədə Eskambiya rayonunun şərifi Devid Morqana istinadən "Fox News" telekanalı xəbər verir.

ABŞ-a təlim keçməyə gəlmiş Səudiyyə Ərəbistanı hərbi hava qüvvələrinin leytenantı polis tərəfindən güllələnmişdir. Hüquq mühafizə orqanları terror motivini istisna etmir.

ABŞ Prezidenti Donald Tramp bildirmişdir ki, Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Saud ona zəng edərək faciə qurbanlarının yaxınlarına başsağlığı vermişdir.

Xatırladaq ki, dekabrın 4-də hərbi dəniz qüvvələrinin Havay adalarındakı Perl-Harbor bazasında matroslardan biri iki nəfəri qətlə yetirmiş, bir nəfəri yaralamışdır. Bundan sonra cinayətkar intihar etmişdir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı

**YEVDA ABRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı

**YEVDA ABRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Raqif Məmmədliyə əzizi

**ŞAHİN BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının İcra katibliyi Milli Məclisin deputatı

**YEVDA ABRAMOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Milli Məclisin deputatı

**YEVDA ABRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"M.Ə.Əfəndiyev adına 2 №-li Şəhər Klinik Xəstəxanası" publik hüquqi şəxsin kollektivi laboratoriya şöbəsinin müdiri Solmaz Cəfərovaya anası

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 4056
Qiyməti 40 qəpik